# VCT ÖLÇÜ MEYARI

## Şərq tərəfdaşlığı ölkələrində vətəndaş cəmiyyəti mühitinin qiymətləndirilməsi

## Azərbaycan

BAKI, 2019



Müəlliflər: Məhəmməd Quluzadə, Rəna Səfərəliyeva, Emin Rzayev

MG Consulting MMC Azərbaycanda qeyri-kommersiya hüququ üzrə ixtisaslaşmış, yerli və xarici müştərilərinə, o cümlədən diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatlara müxtəlif hüquqi xidmətlər göstərən qeydiyyatdan keçmiş konsaltinq şirkətidir. MG Consulting QHT, kənd təsərrüfatı və sahibkarlıq, o cümlədən sosial müəssisələrlə bağlı qanunvericiliyin təkmilləşdirilməsi sahəsində ekspert xidmətləri təqdim edir. Şirkət təlimlərin keçirilməsində, ölkə hesabatlarının, o cümlədən qanunu oxucuya aydın şəkildə izah edən müxtəlif nəşrlərin hazırlanmasında geniş təcrübəyə malikdir. Bundan əlavə, 1300-dən çox QHT fəalı olan "QHT qanunverciliyi" adlı feysbuk səhifəsini və qrupu, həmçinin, "QHT Azərbaycan" adlı mobil tətbiqetməni idarə edir.

Qeyri-Kommersiya hüququ üzrə Avropa Mərkəzi (ECNL) vətəndaş cəmiyyətinə təsir edən qanun və qaydalar sahəsində qabaqcıl Avropa mənbəyi və tədqiqat mərkəzidir. ECNL insanların sərbəst şəkildə təşkilatlana, birlikdə formalaşa biləcəyi mühitin yaradılmasını dəstəkləyir və cəmiyyətlərin inkişafına töhfə verir. ECNL-in həyata keçirdiyi fəaliyyət vətəndaş cəmiyyəti təşkilatlarına sərbəst şəkildə fəaliyyət göstərmək, maliyyə baxımdan davamlı olmaq, güclü idarəçiliyə yiyələnmək, qanun-qaydaların hazırlanmasında iştirak etmək və ictimai dəstəyi səfərbər etmək üçün şəraitin yaradılmasında yardımçı olur. Vətəndaş cəmiyyəti üçün əlverişli mühiti təşviq edən qanun-qaydaların hazırlanmasından əlavə, ECNL yerli maraqlı tərəflərə bu yöndə səlahiyyətlər verir, alət və mexanizmlərin tətbiqinin monitorinqini aparır və tədqiqat, təhlil yolu ilə bilik bazası yaradır.

Müəlliflik hüquqları © 2019 ECNL və MG Consulting MMC-yə məxsusdur. Bütün hüquqlar qorunur.

Bu sənəd Avropa Birliyinin maliyyə yardımı ilə həyata keçirilən "İrəliləşlərin monitorinqi, fəaliyyətin gücləndirilməsi" Layihəsi çərçivəsində hazırlanmışdır. Sənədin məzmununa görə yalnız MG Consulting MMC məsuliyyət daşıyır və bu sənəd heç bir halda Avropa Birliyinin mövqeyini əks etdirən sənəd kimi qəbul edilə bilməz.

# Mündəricat


I. Qısa İcmal 3

II. Giriş 5

III. Kontekst & Ümumi məlumat 7

IV. Əlverişli mühit üzrə əsas tapıntılar 9

4.1 Birləşmək azadlığı 9
4.2 Bərabər rəftar 14
4.3 Maliyyəyə çıxış 16
4.4 Dinc toplaşmaq azadlığı 18
4.5 Qərarların qəbulunda iştirak etmək hüququ 21
4.6 İfadə azadlığı 26
4.7 Şəxsi həyatın toxunulmazlığı hüququ 29
4.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi 32
4.9 Dövlətin dəstəyi 34
4.10 Hökumət-VCT əməkdaşlığı 40

V. Qənaətlər və tövsiyələr 42

VI. Qoşmalar 44

Qoşmalar 1 - Bibilioqrafiya 44

# ABREVİATURALAR

| | |
|---|---|
| ASAN | Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi |
| VCT | Vətəndaş Cəmiyyəti Təşkilatı |
| AŞ | Avropa Şurası |
| ŞT | Şərq Tərəfdaşlığı |
| İHAK | İnsan Hüquqları haqqında Avropa Konvensiyası |
| İHAM | İnsan Hüquqları üzrə Avropa Məhkəməsi |
| ŞQTİ | Şərq-Qərb İdarəetmə İnstitutu |
| FATF | Maliyyə Məsələləri üzrə Məqsəd Qrupu |
| MSHBP | Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt |
| ICNL | Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz |
| MK | Məcburi Köçkünlər |
| MN | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| QHT | Qeyri-Hökumət Təşkilatı |
| QHT Şurası | Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası |
| OGP | Açıq Hökümət Tərəfdaşlığı Platforması |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| USAID | Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi |

# I. QISA İCMAL

## Metodologiya

VCT Ölçü meyarı ECNL-in əsas qrup mütəxəssislərindən, altı ŞT ölkəsindən olan yerli tərəfdaşlar tərəfindən hazırlanmışdır və 10 sahə, 30 standart və 161 göstəriciyə (qanunvericilik və təcrübə üzrə) əsaslanır. Hazırkı hesabat VCT Ölçü meyarı standartları və göstəriciləri əsasında Azərbaycandakı vəziyyəti təhlil edir və məlumat toplamaq üçün aşağıdakı metodlardan istifadə etmişdir:

- Hüquqi/normativ sənədlərin, digər mövcud indekslərin və ya VCT Ölçü meyarının əhatə etdiyi sahələrdə aparılmış təhlillərin nəzərdən keçirilməsi də daxil olmaqla *ilkin araşdırma*;
- Əsas yanaşmaları və təcrübəni qiymətləndirmək üçün VCT-lər arasında *sorğu* (52 cavab əsasında);
- Seçilmiş maraqlı tərəflərlə (VCT-lər, hökumət rəsmiləri və s. daxil olmaqla) *müsahibələr*; və
- VCT mühitinin spesifik tərəflərini öyrənmək, müəyyən nəticələri yoxlamaq və s. üçün *focus (hədəf) qruplar*.

## Müəlliflər

VCT Ölçü meyarı Azərbaycan hesabatı VCT sahəsində ixtisaslaşmış qurum olan MG Consulting MMC-nin ekspertləri tərəfindən hazırlanmışdır.

## Məzmunun xülasəsi

Keçmiş SSRİ ölkələri, məsələn Gürcüstan və Ukrayna ilə müqayisədə Azərbaycanda VCT-lərin sayı nisbətən azdır - 2019-cu ilin fevral ayı üzrə qeydiyyata alınmış 4350 VCT mövcuddur. 2017-ci ildən ötən vaxt ərzində Hökumətin VCT-lərə münasibətində isinmə baş vermişdir. Bu, Azərbaycanda QHT-lərin ümumi fəaliyyət mühitinə müsbət təsir göstərən qeydə alınmış xarici qrantların[1] sayının artmasına səbəb olmuşdur.

Son beş il ərzində məhdud xarici maliyyələşdirmə yerli VCT-ləri müxtəlif dövlət maliyyələşdirmə mexanizmlərindən asılı vəziyyətə salmış, eyni zamanda, xarici qrantlardan asılılığı azaltmaq və fəaliyyətlərini davam etdirmək üçün gəlir mənbələrini şaxələndirməyə məcbur etmişdir. Nəticədə, bəzi təşkilatlar biznes modellərinə keçmiş, daha çox ödənişli xidmətlər göstərmiş və yerli mənbələrdən vəsait toplamağa daha çox diqqət yetirmişlər.

Ölkədəki qaçqın və məcburi köçkünlərin sayının çox olması (ümumi əhalinin təxminən 10 faizini təşkil edir), həmçinin şəhər və kənd əraziləri arasındakı artan inkişaf fərqi VCT-lərə Hökumətin gördüyü işlərə əlavə xidmətlər göstərməyi zəruri edir.

1 ƏN-dən rəsmi məktub. Həmçinin, fokus qruplardan əldə olunmuş məlumat.

# Hesabatın əsas nəticələri

2014-2015-ci illərdə tətbiq olunan məhdudlaşdırıcı qanunvericilik, bu təcrübənin dəyişməyə başladığı 2017-ci ilin ortalarına qədərki müddət ərzində yerli VCT-ləri xarici maliyyəyə çıxış imkanlarından məhrum etmişdir. Bu dövrdə VCT-lər əsasən müxtəlif dövlət maliyyələşdirmə mexanizmləri sayəsində ayaqda qala bilsələr də, maliyyə mənbələrinin çatışmazlığı səbəbindən onların fəaliyyət göstərmək imkanları ciddi şəkildə azalmışdır.

Hesabat dövründə qanunvericiliyə edilmiş bir sıra dəyişikliklər VCT-lər üçün ümumi fəaliyyət və hüquqi mühitin yaxşılaşdırılmasına (Vergi Məcəlləsində yeni dəyişikliklər və s.) öz töhfəsini vermişdir. Eyni zamanda, VCT-lərin müxtəlif dövlət qurumları ilə, İctimai Şuralar vasitəsilə iş birliyi də daxil olmaqla, daha çox əməkdaşlıq imkanları mövcud olmuşdur.

# Əsas tövsiyələr

Hesabatda 10 sahə üzrə ümumilikdə 37 tövsiyə müəyyən edilmişdir.

**Birləşmək azadlığına** dair VCT-lərin qeydiyyatı ilə bağlı mövcud olan problemli məsələlər, VCT-lərin hesabat öhdəliklərinin, hüquqi şəxslərin dövlət reyestrindən yeni çıxarışın alınması prosedurunun sadələşdirilməsi, regionlarda tədbirlərin keçirilməsinə icazə tələbinin ləğvi və s. hesabatda xüsusi vurğulanmışdır.

**Maliyyəyə çıxışla** bağlı tövsiyələr qrant və ianələrin qeydiyyatını sadələşdirmək, xidmət müqavilələrinin qeydiyyata alınması tələbini ləğv etmək, kommersiya şirkətlərinin mənfəətinin 10%-dən çox olmayan hissəsinin VCT-lərə köçürülməsi mexanizmini hazırlamaq və s.-dən ibarətdir.

**Q**ərarların qəbul edilməsində iştirak hüququ ilə bağlı hesabat bütün milli səviyyəli qurumların və yerli icra hakimiyyəti orqanlarının üzərinə hüquqi aktların layihələrini ictimaiyyət və VCT-lərin nəzərdən keçirmələri üçün dərc etmək öhdəliyi qoyulmasının vacibliyini qeyd edir.

**Dövlətin qorumaq öhdəliyi** ilə bağlı təklif ondan ibarətdir ki, ekstremizmə, terrorçuluğa, çirkli pulların yuyulmasına və korrupsiyaya qarşı mübarizə ilə əlaqədar VCT-lərin öhdəliklərinə yenidən baxılsın və həmin öhdəliklər müəyyən kriteriyaya (məsələn, illik dövriyyəsi 50,000 AZN-dən çox olan) cavab verən VCT-lərə tətbiq edilsin.

**Dövlət dəstəyi** ilə əlaqədar hesabat, fərdi və korporativ donorlar üçün vergi güzəştlərinin tətbiq edilməsinin, habelə, bir gündən artıq davam etməyən xüsusi məqsədli, (təcili, “ad hoc”) işlər üçün könüllü ilə yazılı müqavilənin bağlanması tələbinin aradan qaldırılmasının zəruriliyini bildirir.

**Dövlət-VCT əməkdaşlığı** ilə bağlı hesabat təklif edir ki, VCT-lərlə məsləhətləşmələrin, xüsusən də, VCT-lərə təsir edən qərarlar barədə məsləhətləşmələrin Nazirlər Kabinetində aparılması təmin edilsin, habelə dövlət məmurları üçün VCT-hökumət əməkdaşlığı mövzusunda təlimlər təşkil edilsin.

# II. GİRİŞ

## VCT Ölçü Meyarı nədir?

VCT Ölçü Meyarı Şərq Tərəfdaşlığı (ŞT) ölkələrində vətəndaş cəmiyyəti təşkilatlarının (VCT-lər) fəaliyyət göstərdiyi mühitin müntəzəm və ardıcıl monitorinqi və qiymətləndirilməsini dəstəkləmək üçün hazırlanmış bir alətdir. O, həm qanunu, həm də təcrübəni ölçmək üçün 10 fərqli sahədəki standartlar və göstəricilərdən ibarətdir. Bu alət beynəlxalq standartların və ən yaxşı tənzimləmə təcrübələrinin nəzərdən keçirilməsinə əsaslanır.

VCT Ölçü Meyarı, Qeyri-Kommersiya Hüququ üzrə Avropa Mərkəzi (ECNL) tərəfindən dəstəklənmiş yüksək səviyyədə məsləhətləşmələr və əməkdaşlıq yolu ilə hazırlanmışdır. Alətin layihəsi əsas qrup yerli mütəxəssislər tərəfindən birgə hazırlanmış və region boyunca 807-dən artıq VCT-lərlə üç dövrədə məsləhətləşdirilmişdir. Altı Şərq Tərəfdaşlığı ölkəsinin hər birindəki yerli tərəfdaş - Şəffaflıq Beynəlxalq Antikorrupsiya Mərkəzi (Ermənistan); MG Consulting MMC (Azərbaycan); Vətəndaş Cəmiyyəti İnstitutu (Gürcüstan); Promo-Lex Assosiasiyası (Moldova); Ukrayna Müstəqil Siyasi Tədqiqatlar Mərkəzi (Ukrayna) bu prosesi dəstəkləmişdir.

## VCT-lər üçün əlverişli mühitin əsas elementləri hansılardır?

Alətin məqsədi üçün "VCT" termini öz təsisçilərinin və ya üzvlərinin qeyri-kommersiya məqsədlərini həyata keçirmək üçün yaradılmış könüllü özünüidarəetmə qurumlarını və ya təşkilatlarını müəyyən etmək üçün istifadə olunur. VCT-lər həm şəxslər (fiziki və hüquqi) həm də belə şəxslər qrupu tərəfindən yaradılmış qurumları və ya təşkilatları əhatə edir. Onlar ya üzvlüyə əsaslanan ya da üzvlüyə əsaslanmayan ola bilərlər. VCT-lər ya qeyri-rəsmi qurumlar, ya da hüquqi şəxsiyyəti olan təşkilatlar ola bilərlər. Bunlara, məsələn, birlikləri, fondları, qey-ri-kommersiya şirkətlərini və yuxarıda göstərilən meyarlara cavab verən digər formalardakı qurumları aid etmək olar. VCT Ölçü Meyarı siyasi partiyalar, dini təşkilatlar və həmkarlar ittifaqları üçün olan mühiti nəzərə almır.

VCT Ölçü Meyarı iki əsas hissəyə bölünür:

- Əsas hüquq və azadlıqlar vətəndaş cəmiyyətinin mövcudluğu üçün vacibdir və bunlara daxildir: (1) birləşmə azadlığı, (2) bərabər rəftar, (3) maliyyəyə çıxış, (4) dinc toplaşmaq azadlığı, (5) qərarların qəbulunda iştirak hüququ (6), ifadə azadlığı, (7) şəxsi toxunulmazlıq hüququ və (8) dövlətin qorumaq öhdəliyi.
- **Lazımi şərtlər** vətəndaş cəmiyyətinin inkişafı üçün əlavə dəstəyi təmin edir (hərçənd ki, onların əsas hüquq və azadlıqlar olmadan mövcudluğu əlverişli mühiti təmin etmək üçün kifayət deyil) və onlara: (1) dövlət dəstəyi və (2) dövlət-VCT əməkdaşlığı daxildir.

## Hesabat necə hazırlanmışdır?

Hesabat layihənin Azərbaycandakı yerli partnyoru - MG Consulting tərəfindən, bütün altı

Şərq Tərəfdaşlığı ölkələrinin hamısı üçün birgə metodologiyaya uyğun hazırlanmışdır. Müəlliflər yeddi müsahibə, üç fokus qrup (ikisi Bakı VCT-ləri və biri regional VCT-lər üçün - cəmi 27 VCT) aparmış və üç dövlət orqanından (QHT-lərə Dövlət Dəstəyi Şurası, Gənclər Fondu və Ədliyyə Nazirliyi) rəsmi məlumatlar almışlar.

Nəticələrin və tövsiyələrin ölkədəki ümumi vəziyyəti əks etdirməsini təmin etmək üçün əsas yerli maraqlı tərəflərin nümayəndələrindən ibarət Məşvərət Şurası tərəfindən hesabatın hazırlanması monitorinq edilmişdir.

Hesabat VCT Ölçü Meyarının bir hissəsi olan 30 standartı nəzərdən keçirir və əhatə olunmuş 10 sahənin hər birində yaxşılaşdırmalar üçün tövsiyələr verir. O, sonda, həmçinin, ən vacib nəticələri və tövsiyələri əks etdirir. Tövsiyələr hökumətin Azərbaycanda vətəndaş cəmiyyəti üçün mühiti yaxşılaşdırmaq yönündə həyata keçirə biləcəyi gələcək islahatlar üçün əsas ola bilər.

# III. KONTEKST & ÜMUMİ MƏLUMAT

**Adambaşına ÜDM (2017, Dünya Bankı)**[2] 4135.1

**Əhali (2019-cu ilin aprel ayına olan məlumat)**: 10, 000, 000[3]

**Mətbuat Azadlığı İndeksi:** 180-dən 164-cü[4]

**VCT-lərin sayı (2019-cu ilin fevral ayına olan məlumat):** 4350[5]

Hesabat dövründə 2018-ci ilin aprel ayında prezident seçkiləri keçirildi və hazırkı Prezident İlham Əliyev yeddi il müddətinə yenidən prezident seçildi. Uğurlu iqtisadi islahatlar 2015-ci ildə milli valyutanın ikiqat devalvasiyasının ciddi şəkildə təsir etdiyi yerli iqtisadiyyatı və xüsusilə qeyri-neft sektorunu gücləndirmişdir.

Qanunvericilik səviyyəsində bir sıra dəyişikliklər baş vermiş və VCT-lərin həmin dəyişiklikləri mənimsəməsi müəyyən vaxt aparmışdır. Vergi Məcəlləsinə, vəkillik, sosial müdafiə ilə bağlı qanunvericiliyə edilmiş dəyişiklikləri, humanitar təşkilatların yerli işçilərinin əmək haqqlarına tətbiq edilən vergi azad olmalarının ləğv edilməsini, VCT-lər üçün yeni mühasibat uçotu qaydalarını, qeyri-neft sektoru üçün yeni meyarları və s. buna misal olaraq göstərmək olar.

Bu dəyişikliklər Hökümətin VCT-lərə münasibətinin yaxşılaşması ilə müşayiət olundu və bu da 2015-2017-ci illərdə sektor üçün əsas problem olan xarici qrantların və xidmət müqavilələrinin qeydiyyata alınma sayının artmasına səbəb oldu.

Azərbaycanda cəmi 4350 qeydiyyatdan keçmiş VCT olsa da, media ilə bağlı vəziyyət beynəlxalq ictimaiyyət tərəfindən tez-tez tənqid olunur. Xüsusilə bu, defamasiyaya görə cinayət təqibi ilə əlaqəlidir. Azərbaycanda demokratikləşmə prosesləri davam edir və hesabat dövründə xüsusən Hökümət, vətəndaş cəmiyyətlərinə[6] qrant verə biləcək dövlət orqanlarının sayını artırmış, habelə daha çox hallarda vətəndaş cəmiyyətləri ilə ictimai məsləhətləşmələr aparmışdır.

2014-2015-ci illərdə[7] vətəndaş cəmiyyətinə edilən basqıların və xarici qrantların alınmasını praktik olaraq qeyr-mümkün edən qanunvericilik dəyişikliklərinin ardınca, 2017-2018-ci illərdə hökumətin VCT-lərə münasibətdə mövqeyi yaxşılaşmışdır. Bu, qismən beynəlxalq ictimaiyyətin təzyiqlərinə cavab olaraq, qismən də, VCT-lərin bir sıra faydalı sosial xidmətlər göstərə və mühüm dövlət proqramlarına və hüquq islahatlara töhfə verə biləcəyinin dərk edilməsinə görə baş vermişdir. Nəticədə, tədqiqat 2017-2018-ci illərdə yerli və ya xarici VCT-lərə cərimələrin, o cümlədən səyahət qadağalarının tətbiq edilməsi hallarını müəyyən

2 https://data.worldbank.org/country/azerbaijan

3 http://www.yap.org.az/az/view/news/32999/azerbaycan-ehalisinin-sayi-10-milyon-nefere-chatib

4 https://rsf.org/en/ranking/2018#

5 USAID VCT Davamlılıq İndeksi 2018.

6 https://sputnik.az/life/20181211/418345596/prezident-qrant-verenlerin-siyahisini-deyishdi.html

7 https://www.hrw.org/world-report/2015/country-chapters/azerbaijan

etməmişdir.

Bu irəliləyişlərə baxmayaraq, VCT-lərin imkanları daimi maliyyə çatışmazlığı səbəbindən ciddi şəkildə zəifləmişdir. Dövlət donorlarının sayının 12-ə[8] qədər artmasına baxmayaraq, mövcud qrantlar VCT-lərin davamlılığını və peşəkar inkişafını təmin etmək üçün hələ də çox kiçikdir. Regional VCT-lərin təşkilati imkanları Bakıdakılardan daha zəif olaraq qalmaqda davam edir. Həmçinin, bölgələrdə ictimai tədbirlərin təşkili üçün tələb olunan "icazə" VCT-lərin fəaliyyətinə mane olur.

Azərbaycanda biznesin qeydiyyatı VCT-lər üçün mövcud olan rejimdən çox asan olduğundan ən işlək və peşəkar VCT-lər biznes şirkətləri və ya fərdi xidmət müqavilələri[9] vasitəsilə işləməyi seçdilər. Bu müvəqqəti tədbir şəffaflıq və hesabatlılıq ilə əlaqəli VCT-lər üçün əhəmiyyətli riskləri özündə ehtiva etməklə yanaşı, VCT-lərin donorlarla qrant tarixçəsinə də təsir göstərir. Bundan əlavə, bəzi xarici donorlar digərlərinə nisbətən daha az çevikdirlər və bu biznes formatına razı deyillər. Bu, faktiki olaraq VCT-lərin de-yure sahibkarlıq subyektləri kimi fəaliyyət göstərmələri və onların fəaliyyətinin (vergi ödəməsindən başqa) hökumətin nəzarətindən kənarda qalması ilə nəticələndi ki, bu da məhz 2014-2015-ci illərdə VCT-lərə qarşı olan basqıların motivi idi.

Hökumətin VCT-lərə müsbət münasibəti ilə yanaşı, 2017-2018-ci illər ərzində VCT-lərin ictimai imici də yaxşılaşmışdır. Bu məsələyə Vətəndaş Cəmiyyəti Jurnalı, www.qht.az və www.qhtxeber.az portalları, həmçinin, müntəzəm olaraq VCT-lərlə əlaqəli video və xəbərlər paylaşan yeni yaradılmış onlayn QHT TV (www.qhttv.az) kimi VCT yönümlü KİV vasitələrilə uğurlu media yayımı da öz töhfəsini vermişdir. Gənclər, sosial məsələlər, məcburi köçkünlər və əlillər kimi müxtəlif mövzularda VCT-lər tərəfindən hazırlanmış filmləri nümayiş etdirən www.qhtfilm.az veb-səhifəsi də mövcuddur. Buna baxmayaraq, Azərbaycandakı VCT-lər illik hesabatlarını dərc etsəydilər, təşkilatlarının veb səhifələrinə malik olsaydılar və media ilə daha yaxından işləsəydilər, ictimai imiclərini yaxşılaşdıra bilərdilər. Digər məsələlərlə yanaşı, QHT-lərə Dəstək Şurası 2018-ci ildə ümumilikdə 107 televiziya proqramının, 20 sosial videoçarxın, 34 filmin və 11 veb-səhifənin maliyyələşdirilməsi yolu ilə VCT-lərin ictimai imicinə böyük töhfə vermişdir[10]. Bu statistikaların əksəriyyəti 2017-ci ildən keçən zaman ərzindəki artımları əks etdirir.

Könüllülük səviyyəsi o qədər də yüksək deyil və istedadlı gənclər üçün cəlbedici bir iş kimi görünmür.[11] Son miqrasiya tənzimlənməsinə edilən sərt dəyişikliklərdən sonra xarici könüllülərin cəlb edilməsi çətinləşmişdir.

İctimai bir iş üçün pul toplayan xeyriyyə kampaniyaları istisna olmaqla vətəndaş cəmiyyətinə ianə verilməsi geniş yayılmayıb. Bundan əlavə, nağd şəkildə verilən ianələr 200 AZN ilə məhdudlaşır və donorların məlumatları ilə birlikdə hesabatı verilməlidir. Nağdsız əməliyyatlar əhalinin əsas hissəsinə çətinlik yaradır. VCT-lərin üzvlük bazası geniş deyil və bir çox təşkilatlar yalnız rəhbərləri və ən yaxşı halda, əvəzçilik üzrə çalışan mühasibləri ilə təmsil olunurlar.

---

8 https://sputnik.az/life/20181211/418345596/prezident-qrant-verenlerin-siyahisini-deyishdi.html

9 Fokus qruplar

10 QHT Şurasının 2018-ci il üçün illik hesabatı, www.cssn.gov.az

11 Fokus qruplar

# IV. ƏLVERİŞLİ MÜHİT

## ÜZRƏ ƏSAS TAPINTILAR

### 4.1 Birləşmək azadlığı

**STANDART 1: HƏR KƏS SƏRBƏST ŞƏKİLDƏ VCT YARADA, VCT-YƏ QOŞULA VƏ YA VCT-NİN FƏALİYYƏTİNDƏ İŞTİRAK EDƏ BİLƏR**

VCT-nin yaradılması, ona qoşulmaq və ya onun fəaliyyətində iştirak hüququ Azərbaycan vətəndaşlarına təminat verilir və VCT-lərin qeydiyyatı könüllüdür. Eyni hüquqlar Azərbaycanda daimi yaşamaq tələbinə görə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bir qədər məhdud formada tətbiq edilir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının və Avropa Şurasının üzvüdür və bununla da Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktdan (bundan sonra - MSHBP), İnsan Hüquqları haqqında Avropa Konvensiyasından (İHAK) və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) yurisdiksiyasından irəli gələn öhdəliklər daşıyır.

Azərbaycan Konstitusiyası (1995)[12] birləşmək azadlığını (Maddə 58) tanıyır və bildirir: a) Hər kəsin başqaları ilə birləşmək hüququ vardır; b) Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir; c) Heç kəs hər hansı birliyə daxil olmağa və onun üzvlüyündə qalmağa məcbur edilə bilməz.

Bu azadlıqların təmin edilməsi üçün bir sıra qanunlar qəbul edilmişdir: Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Qanun; Qeyri-hökumət təşkilatları haqqında Qanun; Mülki Məcəllə; Qrant haqqında Qanun; Könüllü fəaliyyət haqqında Qanun və s.

Azərbaycan qanunvericiliyi qeydiyyata alınmamış QHT-ləri[13] qadağan etmir, lakin onlar birbaşa olaraq dövlət qrant müsabiqələrində iştirak edə, məhkəmədə iddiaçı və ya cavabdeh ola, əmlak əldə edə, öz adlarına bank hesabı aça və ya vergi ödəyicisinin eyniləşdirmə nömrəsi ala bilməzlər. Azərbaycan qanunvericiliyi onlayn şəkildə birləşməyi tənzimləmir, nə də onu məhdudlaşdırmır.

Azərbaycan vətəndaşları üçün VCT yaratmaq, ona qoşulmaq və ya onun fəaliyyətində iştirak etməklə bağlı heç bir əsas problem yoxdur. Lakin, ICNL-ə görə, "Azərbaycanda yalnız daimi yaşayan əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə birliyin yaradılması hüququnun təmin edilməsi beynəlxalq hüququn pozulmasıdır"[14]. Xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin VCT-lərə üzv olmaları üçün heç bir məhdudiyyət yoxdur. Bununla belə, daimi yaşayış yeri tələbi təsisçilərə, həmçinin VCT-nin qanuni təmsilçilərinə (yəni sədrlərinə) də aiddir. Bundan əlavə, miqrasiya qanunvericiliyi könüllülüyü müvəqqəti və daimi yaşamaq icazəsi almaq üçün əsaslar sırasında müəyyən etmədiyindən Azərbaycandakı VCT-lər əcnəbi

12 24 avqust 2002 və 26 sentyabr 2016-cı il tarixlərində keçirilmiş Referendum nəticəsində əlavə edilmiş dəyişikliklərlə Azərbaycan Respublikasının Konstitusiyası (1995) (bundan sonra - Konstitusiya).

13 QHT-lər haqqında Qanunun 15-ci maddəsi.

14 Azərbaycanda QHT-lər üçün hüquqi mühitin Qiymətləndirilməsi, 2017, ICNL.

könüllülərinə yaşamaq icazəsi ala bilməzlər[15]. Buna baxmayaraq Könüllü Fəaliyyəti haqqında Qanun VCT-lərə əcnəbi könüllülərə malik olmaq hüququ verir.

Hüquqi şəxslər də VCT-lər yarada və onlara qoşula bilərlər. VCT-lər koalisiyalar və ya digər növ platformalar formalaşdırmaqda azaddırlar. Hökumət VCT-ləri koalisiyalara qoşulmağa, nə də koalisiyaları qeydə aldırmağa məcbur etmir. Qanuna görə koalisiyalar sərbəst şəkildə qeydə alınmamış birliklər qismində çıxış edə bilərlər.[16]

2017-2018-ci illər ərzində VCT-lərə təsir göstərən vacib qanunvericilik dəyişiklikləri baş vermişdir:

a. 2016-cı ildə "bir pəncərə" prinsipinin tətbiqi ilə 2017-ci ildə qrantın qeydiyyatı proseduru sadələşdirilmişdir[17];

b. 2018-ci ilin noyabrında Vergi Məcəlləsinə qəbul edilmiş dəyişikliklər sosial sahibkarlıq üçün daha əlverişli şərtlər yaratmış, VCT-lərin işçi heyətinin əmək haqlarını gəlir vergisindən azad etmiş (xarici qrantlar və müqavilələr üçün); və elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən VCT-lərə ianələr edən kommersiya şirkətlərinə 10%-lik mənfəət vergi güzəşti imkanı təqdim etmişdir[18];

c. VCT-lər üçün yeni mühasibatlıq qaydaları tətbiq edilmişdir (2019-cu ildən qüvvədədir)

### STANDART 2: VCT-Nİ HÜQUQİ ŞƏXS KİMİ QEYDİYYATDAN KEÇİRMƏK PROSEDURU AYDIN, SADƏ, TEZ VƏ UCUZDUR

VCT-lərin qeydiyyatı problem olaraq qalır. Qeydiyyat prosedurunun aydın olmasına baxmayaraq, qeydiyyat orqanı VCT-lərin qeydiyyatı məsələsində subyektiv seçimlərə yol verir.

Yerli VCT-lər uzun sürən prosedurlardan (bəzi hallarda illərlə davam edir) müxtəlif səbəblərə görə bir neçə imtinanın verilməsindən, ayrı-ayrı dövlət orqanlarından və ya yerli icra hakimiyyətlərindən dəstək məktublarının təqdim edilməsindən ibarət olan qanunda yazılmamış tələblərdən və s.-dən şikayətçidirlər[19]. Əvvəlki illərdə VCT qeydiyyatı ilə bağlı olan problemlər səbəbindən Azərbaycan İHAM-də bir neçə iş uduzmuşdur[20]. Lakin, 2017-2018-ci illər üzrə bu məsələ ilə bağlı İHAM-də hər hansı qərar qəbul edilməmişdir.

Standart qeydiyyat prosedurlarından əlavə, Azərbaycanda qeydiyyatdan keçmək üçün xarici VCT-lərdən ƏN[21] ilə saziş bağlamaq tələb olunur. 2017-2018-ci illər ərzində Azərbaycanda qeydiyyatdan keçmiş xarici VCT barədə məlumat yoxdur.

---

15 Fokus qrup Bakı, #5.

16 Fokus qrup 2, # 3.

17 Prezidentin 2016-cı il oktyabr tarixli Fərmanı ilə tətbiq edilmişdir.

18 Vergi Məcəlləsinin 106.1.18-ci maddəsi, 2019-cu il 1 yanvar tarixindən qüvvədədir.

19 Bütün fokus qrupları.

20 Bax İsmayılov Azərbaycana qarşı, 17 yanvar 2008-ci il tarixli ərizə nömrə 4439/04 http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-84461. Ramazanova və başqaları Azərbaycan qarşı, İHAM. (ərizə no. 44363/02, 1 fevral 2007-ci il).

21 "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2009-cu il tarixli Fərmanının 2.2-ci maddəsi.

2015-ci ildə VCT-lərin qeydiyyatının ƏN-nin regional qurumlarında həyata keçirilməsini mümkün edən qanunvericilik dəyişiklikləri həyata keçirildi. Lakin, VCT-lər bildirirlər ki, bu mexanizm 2017-2018-ci illərdə işləməmişdir və onlar VCT qeydiyyatı üçün müraciət etməkdən ötrü Bakıya gəlməlidirlər.[22]

VCT-lərin qeydiyyatı üçün dövlət rüsumu kiçik (5 EUR) olsa da, qeydiyyata alınmaları üçün fondlar 10000 AZN (5,000 EUR) məbləğində nizamnamə kapitalına malik olmalıdırlar.

VCT-lərin qeydiyyat orqanının qərarından məhkəməyə müraciət etmək hüquqları vardır. Təcrübədə məhkəmələr qeydiyyat orqanının qərarlarını ləğv etmirlər.

VCT-nin qeydiyyatı üçün tələb olunan sənədlərin siyahısı kommersiya qurumunun qeydiyyatı üçün tələb olunan sənədlərin siyahısından uzundur. Qeydiyyat orqanı VCT qeydiyyatı üçün müvafiq dövlət orqanlarından və ya yerli icra hakimiyyəti orqanlarından dəstək məktubları da tələb edir.[23]

VCT-lərdən regionlarda tədbirlər keçirərkən tələb olunan "icazə" sistemi bütün regionlarda tətbiq olunur. Biznes qurumları tədbirlər keçirərkən onlardan belə icazələr tələb olunmur.

Biznes qurumları üçün daha münasib şərait mövcud olduğundan Azərbaycanda bir çox VCT-lər biznes qurumları yaratmış və onlar vasitəsilə fəaliyyət göstərirlər. Bu halda, biznes qurumlarının təsisçi(lər)si ya VCT-lərin təsisçi(lər)si və ya rəhbərləri ya da VCT-nin özü olur.

Biznes qurumlarının regionlarda qeydiyyatı bir pəncərə sistemi ilə mümkün olsa da, oxşar prosedur VCT-lər üçün mövcud deyil və belə halda Bakıya səfər etmək lazım gəlir. Eynilə, yerli biznes qurumları onlayn qeydiyyatdan keçə bilsələr də, VCT-lərin onlayn qeydiyyatı mümkün deyil.

Ölkəni əhatə etmə baxımından kommersiya qurumları ölkənin inzibati ərazi vahidlərinə bölünmürlər və onların hər hansı birində və hamısında sahibkarlıqla məşğul ola bilərlər. Lakin, VCT-lər öz nizamnamələrində Azərbaycanın bir, bir neçə və ya bütün bölgələrində fəaliyyət göstərmək niyyətində olduqlarını müəyyənləşdirməlidirlər.

### STANDART 3: VCT-LƏR ÖZ MƏQSƏD VƏ VƏZİFƏLƏRİNİ MÜƏYYƏN ETMƏKDƏ VƏ YARADILDIQLARI ÖLKƏLƏR DAXİLİNDƏ VƏ XARİCİNDƏ FƏALİYYƏT GÖSTƏRMƏKDƏ SƏRBƏSTDİRLƏR.

Azərbaycan mövcud olan əsas problemlərdən biri paytaxt Bakıdan kənarda tədbirlər keçirmək üçün hakimiyyət orqanlarından icazə alınmasından ibarət olan qeyri-rəsmi tələbdir. Bu VCT-lər üçün müəyyən problemlər yaradır.

VCT-lərin məqsəd və fəaliyyətlərini müəyyənləşdirmək azadlığı QHT Qanununda təsbit edilmişdir. Bununla yanaşı, Fokus Qruplarında iştirak edən bir sıra VCT nümayəndələri qeyd etdilər ki, təşkilat öz məqsədlərini yenidən nəzərdən keçirmək istəsə[24] (məsələn, Gənclər Fondunun qrantlarına çatımlı olmaq üçün nizamnamələrinə "gənclik" sözünü daxil etmək istədikdə) qeydiyyat orqanı problemlər yaradır. Eyni zamanda, yüzlərlə VCT insan hüquqları, məcburi köçkünlər, qaçqınlar, qadın hüquqları, uşaq hüquqları, sosial rifah, təhsil, səhiyyə,

22 Fokus Qrup 1, #2

23 Bütün fokus qruplar.

24 Fokus Qrup 1. #11

idman və s. kimi məqsədlərlə qeydiyyata alınmışdır.

VCT-lərin ölkə daxilində və xaricində fəaliyyət göstərmələri onların hüququ kimi müəyyən edilmişdir və 2017-2018-ci illər ərzində bu məsələ ilə əlaqədar hər hansı problem qeydə alınmamışdır. Azərbaycan VCT-lərinin Gürcüstanda filiallar yaratması ilə bağlı uğurlu misallar mövcuddur.[25] 2018-ci ildə VCT nümayəndələrinə qarşı tətbiq olunmuş hər hansı səyahət qadağasının mövcud olması halı müəyyən edilməmişdir.[26]

Buna baxmayaraq, VCT-lər üçün regionlarda tədbirlər keçirməkdən ötrü Prezident Aparatından icazə alınmasından ibarət olan yazılmamış prosedur mövcuddur. Bir çox regional VCT-lər şikayət etmişdirlər ki, Prezident Aparatının təsdiqini almaq daha tez mümkün ola bilsə də, yerli icra hakimiyyətləri səviyyəsində onların problemləri yaranır. Bu, onların benefisiarları ilə ünsiyyət qurmaq və yaxşı planlaşdırılmış, yüksək keyfiyyətli tədbirlər keçirmək imkanlarını məhdudlaşdırır. Eyni zamanda, bir sıra regional VCT-lər təsdiqlədi ki, hökumət çox vaxt onlara öz tədbirlərini keçirmək üçün dəbdəbəli ictimai yerləri ya pulsuz ayırır ya da xüsusi güzəştlər tətbiq etməklə verir.[27]

### STANDART 4: TƏTBİQ OLUNAN İSTƏNİLƏN SANKSİYA AÇIQ VƏ MÜTƏNASİBLİK PRİNSİPİNƏ UYĞUNDUR VƏ İSTƏNİLƏN MƏQSƏDƏ ÇATMAQ ÜÇÜN ƏN SON MÜDAXİLƏ VASİTƏSİDİR.

VCT-lərə qarşı sərt və qeyri-mütənasib olan çoxsaylı cəzalar var. Xoşbəxtlikdən, bu cəzaların tətbiq edilməsinin geniş təcrübəsi yoxdur.

Bütün hüquqi şəxslər kimi VCT-lər vergi, sosial sığorta, lisenziya və digər qanunvericiliyin pozulmasına görə cəzalara məruz qalırlar. Eyni zamanda, qrant, ianə və ya xidmət müqavilələrinin qeydiyyata alınmaması; illik maliyyə hesabatının təqdim edilməməsi; könüllülərlə müqavilə imzalanmaması; nağd ianə üçün nəzərdə tutulmuş məbləğ həddini aşma və s. bu kimi pozuntulara görə də VCT-lərə əlavə cərimələr tətbiq olunur. Bir çox hallarda bu cür xətalara görə cərimə çox yüksəkdir. Məsələn, VCT-nin qrantı qeydiyyata almaması 5000-7000 AZN (təxminən 2.600-3.700 Avro)[28], ianənin məbləği və mənbəyi barədə məlumatı Maliyyə Nazirliyinə (MN) təqdim edilən maliyyə hesabatına daxil etməmək 5.000-8.000 AZN (təxminən 2.600-4.200 Avro)[29] cərimə ilə cəzalandırılır. VCT-yə 200 AZN-dən artıq miqdarda nağd ianə verilməsinə görə fiziki şəxslər üçün 250-500 AZN (təxminən 130-260 Avro) vəzifəli şəxslər üçün 750-1,500 AZN (təxminən 400-800 Avro) cərimə edilir) və hüquqi şəxslər üçün 3500-7000 AZN (təxminən 1.800-3.700 Avro) məbləğində cərimə nəzərdə tutulmuşdur.[30] Hüquqi şəxslərin dövlət qeydiyyatı üçün yalnış məlumatların verilməsinə görə fiziki şəxslər 700 AZN (təxminən 400 Avro), hüquqi şəxslər 4000 AZN (təxminən 2100 Avro) cərimə ilə cəzalandırılır və s.[31] Bundan əlavə, bu sanksiyaları tətbiq etməmişdən öncə hər hansı xəbərdarlıq verilmir.

VCT-lər bu cür yüksək cəzalardan narazıdırlar və bu, şübhəsiz ki, onları fəaliyyət göstərməkdən çəkindirir. Eyni zamanda, bir çox VCT-lər bu cəzaların ümumiyyətlə VCT-lərə tətbiq

25 Fokus Qrup 2, #1.

26 Fokus Qrup.

27 Fokus Qrup 2, #7

28 İXM-nin 432-ci maddəsi.

29 İXM-nin 465-ci maddəsi.

30 İXM-nin 466.1-ci maddəsi.

31 İXM-nin 403-cü maddəsi.

edilmədiyini təsdiqlədilər.[32] Məsələn, 2018-ci ildə bir VCT-nin illik maliyyə hesabatını təqdim etməməsinə görə ona cərimə tətbiqi ilə bağlı bir iş olmasına baxmayaraq, MN-nin həmin qərarı məhkəmələrdə ləğv edilmişdir.[33]

Məcburi ləğvetmə yalnız məhkəmə prosedurundan sonra mümkündür. Bu, məsələn, o halda ola bilər ki, VCT ƏN tərəfindən ona bildirilmiş çatışmazlığı aradan qaldırmasın və təşkilata bir il ərzində ikidən artıq xəbərdarlıq verilmiş olsun. VCT-nin fəaliyyətinin müvəqqəti dayandırılması halı da mövcuddur. ƏN-nin rəsmi statistikasına əsasən 2017-2018-ci illərdə VCT-lərin məcburi ləğvetməsi ilə bağlı hər hansı iş qeydə alınmamışdır.[34] *Təbiəti Mühafizə Cəmiyyəti Azərbaycana qarşı* 2009-cu ildəki işdən sonra məcburi ləğvetmə ilə bağlı qanunvericilik yenidən nəzərdən keçirilmişdir və hazırda bu məsələ VCT-lər üçün ciddi problem yaratmır.

## STANDART 5: DÖVLƏT VCT-LƏRİN DAXİLİ İŞLƏRİNƏ VƏ FƏALİYYƏTİNƏ QARIŞMIR

VCT-lər daxili idarəetmələrini və fəaliyyətlərini öz nizamnamələrinə əsasən müəyyən edirlər. Onların fəaliyyəti ƏN-nin yoxlamalarına məruz qalır və müxətlif dövlət orqanları qarşısında ağır hesabatlılıq öhdəliklərini nəzərdə tutur.

VCT-lərin idarə heyətində və ya rəhbərinin seçilməsində hər dəfə dəyişiklik baş verdikdə hüquqi şəxslərin dövlət reyestrindən yeni çıxarışın alınması tələbi VCT-lərin fəaliyyətinə maneə yaradır. Bəzi VCT-lər 2017-2018-ci illər ərzində belə sənədin əldə edilməsindəki çətinliklərdən şikayət etmişlər.[35] ƏN bildirmişdir ki, bu çatışmazlığın aradan qaldırılması üçün onlayn prosedurların təqdim edilməsini nəzərdə tutublar.

VCT-lərdəki yoxlamalar ƏN tərəfindən aparılır və VCT-lərin fəaliyyətinin öyrənilməsi haqqında qaydalar[36], həmçinin, çirkli pulların yuyulması ilə bağlı qanunvericiliklə[37] tənzimlənir. ƏN-dən başqa Vergilər Nazirliyinin, Prokurorluğun və Dövlət Məşğulluq Xidmətinin də VCT-ləri yoxlamaq səlahiyyətləri vardır. ƏN hər il yoxlanılacaq VCT-lərin siyahısını təsdiqləyir və adətən qrantların, xidmət müqavilələrinin və ianələrin qeydiyyatı, çıxarışların etibarlılığı və digər məsələlər yoxlanılır. Bu cür yoxlamalar nəticəsində ƏN VCT-lərə xəbərdarlıq verə və ya cərimə tətbiq edə bilər. 2017-ci ildə ƏN VCT-lərə 33, 2018-ci ildə isə yalnız 2 xəbərdarlıq etmişdir.[38]

Ümumiyyətlə, VCT-lər çox böyük hesabat yükündən şikayətlənirlər. Məhdud maliyyə imkanları və xarici qrantların qeydiyyata alınmasının çətinliyi səbəbindən, VCT-lər hesabatların hamısının yerinə yetirilməsini təmin etmək üçün işçiləri (yəni hüquqşünasları, mühasibləri, buna nəzarət üzrə işçiləri və s.) daimi əsaslarla işə götürə bilmirlər.[39] Nəticədə yoxlamalara və əməliyyatlarının dayandırılmasına səbəb ola biləcək sonrakı cəzalara məruz qalmağa həssas olurlar.

---

32 Fokus qrup 2, #1, # 2, #3, və s.

33 Məşvərət Şurası üzvlərindən birinin verdiyi məlumat.

34 ƏN-nin səlahiyyətli şəxsinin verdiyi 25 aprel 2019-cu il tarixli rəsmi məktub.

35 Fokus qrup 1, #11

36 "QHT-lərin, Xarici QHT-lərin nümayəndəlik və filiallarının fəaliyyətlərinin öyrənilməsi qaydaları haqqında" Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 28 dekabr 2015-ci il tarixli Qərarı.

37 "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanun, 2009.

38 ƏN-nin səlahiyyətli şəxsinin verdiyi 25 aprel 2019-cu il tarixli rəsmi məktub.

39 Müsahibə, #4.

2018-ci ilin noyabr ayında vergi qanunvericiliyinə edilən dəyişikliklərlə, sosial ayırmalar və vergilərə dair iki ayrı rüblük hesabat bir-birinə birləşdirilərək onlayn olaraq «bir pəncərə» mexanizmi vasitəsi ilə təqdim olunur. Nəticə olaraq, «Ümumilikdə, maliyyə hesabatını təqdim etmək daha da asanlaşmışdır”.[40]

**SAHƏ 1 ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:**

- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-lər yaratmaq və onları idarə etmək hüquqlarını təmin etmək;
- Müddətləri azaltmaq və ƏN-nin subyektiv rəftarını aradan qaldırmaqla VCT-lərin qeydiyyatı prosedurunu sadələşdirmək;
- Əcnəbi könüllülərə müvafiq yaşama icazəsi almaq üçün bir mexanizm təqdim etmək;
- VCT-lərin hesabat öhdəliklərini VCT-lərin böyüklüyündən və dövriyyəsindən asılı olaraq sadələşdirmək;
- Hüquqi şəxslərin dövlət reyestrindən yeni çıxarışın alınması prosedurunu sadələşdirmək;
- Bölgələrdə tədbirlərin keçirilməsinə icazə almaq tələbini ləğv etmək.

## 4.2 Bərabər rəftar

### STANDART 1: DÖVLƏT BÜTÜN VCT-LƏRƏ SAHİBKARLIQ SUBYEKTLƏRİ İLƏ BƏRABƏR MÜNASİBƏT GÖSTƏRİR

VCT qeydiyyat proseduru kommersiya qurumlarına nisbətən daha gec, mürəkkəb və az əlçatandır. Eynilə, VCT-lər üçün hesabat yükü biznes qurumlarının yükündən qat-qat ağırdır.

Dövlət rüsumu baxımından, dövlət VCT-lərə sahibkarlıq subyektləri ilə bərabər münasibət göstərir. Bununla belə, bir biznes qurumunun qeydiyyatı Vergilər Nazirliyində aparılır və 1-3 gün çəkir, QHT-lərin qeydiyyatı isə ƏN-də aparılır və qaydalara əsasən 30 günə qədər davam edir (təcrübədə bu illərlə davam edə bilər). Biznes qurumlarının qeydiyyata alınmasından imtinalar yalnız nadir hallarda olur (məsələn, eyni hüquqi adı olan bir qurum artıq mövcud olduqda). Bununla yanaşı, VCT-lər üçün qeydiyyatdan imtinanın səbəbləri sonsuzdur (idarə heyətinin formalaşması, VCT-nin vəzifəsi, gəlir mənbələri və s.).

Hesabat baxımından VCT-lər üçün hesabat yükü biznes qurumlarının yükündən qat-qat ağırdır (məsələn, biznes qurumlarından fərqli olaraq, VCT-lərdən xidmət müqavilələrini qeydiyyata almaq və ya illik maliyyə hesabatını Maliyyə Nazirliyinə təqdim etmək tələb olunur). Eyni zamanda, kommersiya qurumları ianə ala bilmirlər və könüllülərin xidmətlərindən istifadə edə bilmirlər, halbuki VCT-lər hər ikisindən istifadə edə bilərlər.

QHT-lər üçün yoxlamalar adətən biznes qurumlarının yoxlamaları ilə müqayisədə daha çox

40 Fokus qrup 2, #3.

olur. Həmçinin, VCT-lər kredit əldə etmək hüququndan məhrumdurlar və bəzi banklar VCT-lər üçün biznes bank kartları (debet və ya kredit) vermirlər, halbuki biznes qurumları üçün belə məhdudiyyət yoxdur.[41]

VCT-lər dövlət satınalmalarında kommersiya qurumuları ilə bərabər şərtlərdə iştirak edə bilərlər. Təcrübədə maliyyə imkanları məhdud olduğuna görə, VCT-lər dövlət satınalma tenderlərində iştirak üçün tələb olunan depozit məbləğini[42] verə bilmirlər.

İşçilərin gəlir vergisindən azad edilmə, VCT-lərə dövlət qrantı almadıqda şamil edilir. Ancaq kommersiya qurumları dövlətə xidmət göstərirlərsə, işçilərinin maaşları 14 faiz gəlir vergisindən azaddır.[43]

VCT-lər üçün İXM-də göstərilmiş cərimələr, fiziki şəxslər və biznes qurumları üçün oxşar qanun pozuntularına görə müəyyən edilmiş cərimələrə nisbətən daha yüksəkdir. VCT-lərə qarşı yüksək cərimələr pozuntuların xarakteri ilə müqayisədə həddindən artıq və qeyri-mütənasibdir. Sahibkarlıq subyektləri və fiziki şəxslər tərəfindən edilən oxşar xətalara görə cərimələrlə müqayisə edildikdə onlar ayrıseçkilik kimi görünür.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən VCT-lərin yaradılması Azərbaycanda daimi yaşamaq tələbi ilə məhdudlaşdırılır. Biznes qurumları üçün belə bir məhdudiyyət yoxdur. Əcnəbi tərəfindən VCT-yə ianə şəklində xarici maliyyələşdirmə qadağandır, halbuki istənilən xarici vətəndaş kommersiya qurumlarına investisiya qoya bilər.

### STANDART 2: DÖVLƏT, BÜTÜN VCT-LƏRLƏ ONLARIN YARADILMASI, QEYDİYYATI VƏ FƏALİYYƏTLƏRİNƏ MÜNASİBƏTDƏ BƏRABƏR RƏFTAR EDİR.

Sosial xidmətlə məşğul olan və gənclər təşkilatları insan haqları sahəsində fəaliyyət göstərən VCT-lərə nisbətən hökumət tərəfindən daha yaxşı rəfatarla üzləşirlər. Bu cür əlverişli rəftar yerli VCT-lərlə müqayisədə xarici VCT-lərə qarşı o qədər də nəzərə çarpmır. Bu, Azərbaycanda fəaliyyət göstərən xarici VCT-lərin sayının çox az olması ilə izah edilə bilər.

Bəzi VCT-lər digərlərindən hökumətdə daha məşhurdurlar. Nəticədə, bu qrup hökumətlə daha çox məsləhətləşməyə dəvət olunur və ya bölgələrdə tədbirlərin keçirilməsində daha az problemlə qarşılaşır.[44]

### SAHƏ 2 ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:

- Qeydiyyat prosedurları və fəaliyyətləri müddətində kommersiya qurumları ilə müqayisədə VCT-lərlə bərabər rəftarı təmin etmək;
- Məsləhətləşmələrdə çox sayda VCT-nin bərabər iştirakını təmin etmək.

41 Fokus qrup 2.

42 Məşvərət Şurası üzvlərindən birinin verdiyi məlumat.

43 “Neft-qaz sahəsində fəaliyyətin və qeyri-dövlət sektorunun Meyarlarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 fevral 2019-cu il tarixli Qərarı.

44 Fokus qrup 2.

## 4.3 Maliyyəyə çıxış

**STANDART 1: VCT-LƏR ÖZ MƏQSƏDLƏRİNƏ ÇATMAQ ÜÇÜN MALİYYƏ VƏ MADDİ MƏNBƏLƏR AXTARMAQDA, ƏLDƏ ETMƏKDƏ VƏ İSTİFADƏ ETMƏKDƏ SƏRBƏSTDİRLƏR.**

Azərbaycan qanunvericiliyi VCT-lər üçün müxtəlif növ gəlir mənbələri təmin edir: qrantlar, ianələr, üzvlük haqları, iqtisadi fəaliyyətdən əldə olunan gəlir, dövlət maliyyəsi və s. Bunlardan bəzilərini əldə etmək və qeydiyyatdan keçirmək digərlərindən daha asandır.

2018-ci ildə müsbət irəliləyişlərdən biri, donor dövlət orqanlarının siyahısına daha üç yeni dövlət orqanının (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi) daxil edilməsi oldu. Beləliklə, 2019-cu ilin mart ayına olan məlumata görə, Azərbaycanda VCT-lərə münasibətdə donor qismində çıxış edən 12 dövlət orqanı var. Onlardan ən böyükləri sırasına QHT Şurası[45], Gənclər Fondu[46], Kütləvi İnformasiya Vasitələrinə Dəstək Fondu[47] və Elmin İnkişafı Fondu[48] daxildir. Digər dövlət donorlarına, məsələn, Təhsil Nazirliyi, Rabitə Nazirliyi, Mədəniyyət Nazirliyi və s. daxildir. QHT-lərə Dəstək Şurasının qrant verilməsi qaydaları ən şəffaf prosedur kimi qeydə alınmışdır.[49]

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi VCT-lərə ‘sosial sifariş’ verməkdə davam edir ki, bu da mahiyyət etibarilə əslində bəzi sosial xidmətlərin VCT-lərə autsors edilməsi deməkdir. 2018-ci ildə VCT-lərlə 18 belə müqavilə imzalanmışdır.

2018-ci ilin dekabr ayında parlament Vergi Məcəlləsinə (2019-cu ilin yanvar ayında qüvvəyə minmişdir) dəyişikliklər qəbul etdi ki, bu da VCT-lər tərəfindən sosial müəssisələrin yaradılması və həyata keçirilməsi üçün əlverişli mühit yaratdı. Məsələn, kənd təsərrüfatı məhsulları istehsal edən sosial müəssisələr 2018-ci ildən etibarən 5 il müddətinə mənfəət vergisindən azad edilmişdirlər. VCT-lər üçün başqa bir gəlir mənbəyi Vergi Məcəlləsində elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahələrində fəaliyyət göstərən VCT-lər üçün kommersiya şirkətlərindən 10 faiz mənfəət vergi güzəşti nəzərdə tutan yeni müddəadır. Bu vəsaitlərin bölgüsü mexanizmi hələ Nazirlər Kabineti tərəfindən təsdiq edilməlidir.

İctimai birliklər üzvlük haqlarından gəlir əldə edə bilər, lakin üzvlük haqqının gəlir vergisindən azad olunmasına baxmayaraq VCT-lər nadir hallarda bundan istifadə edirlər.

Bəzi VCT-lər ianə ilə bağlı məhdudiyyətlərdən əziyyət çəkirlər: a) anonim ianələr qadağandır; b) əcnəbilərdən və vətəndaşlığı olmayan şəxslərdən ianələr qəbul etmək qadağandır; c) 200 manatdan yuxarı nağd ianələr qadağandır; d) hər bir donorun pasport məlumatları, hətta ianə 20 qəpik olsa belə, qeyd olunmalı və Maliyyə Nazirliyinə təqdim edilməlidir; və e) qanunda xeyriyyə təşkilatı statusu almaq üçün dəqiq bir prosedur olmamasına baxmayaraq, yalnız xeyriyyə təşkilatları nağd ianələr[50] ala bilərlər.

---

45 2018-ci ildə 576 layihə maliyyələşdirmişdir. http://cssn.gov.az/news.php?id=3648&lang=az.

46 2018-ci ildə VCT-lərə ümumi büdcəsi 683,500 AZN olan 99 qrant vermişdir (fiziki şəxslərə verilmiş qrantlar nəzərə alınmamışdır) https://youthfoundation.az/42251.

47 http://kivdf.gov.az/.

48 http://www.sdf.gov.az/az/generic/news/Detail/238.

49 VCT Dayanıqlılıq İndeksi, USAID, Azerbaijan 2017.

50 QHT qanununun 24-1-ci, İXM-nin 465-ci maddəsi.

Digər tərəfdən, Vergi Məcəlləsi üzvlük haqqı, ianə və qrantları gəlir vergisindən azad edir. Bu güzəştdən istifadə etmək üçün ianə və qrantlar ƏN-də qeydiyyata alınmalıdır. Qanunvericilikdə ianələrin natura şəklində verilməsini tənzimləyən qaydalar mövcud deyil.

Qanunvericilik, bir çox hallarda Azərbaycandakı VCT-lərə tanış olmayan ianə qutuları və kraudfaundinq (kütləvi maliyyələşmə) vasitəsi ilə maliyyələşməni tənzimləmir. Azərbaycan qanunvericiliyində faiz xeyriyyəçiliyi və ya lotereyalardan gəlir kimi müddəalar da yoxdur.

Qanunvericilik VCT-lərə və ya onların rəhbərlərinə/nümayəndələrinə xaricdə bank hesabları açmağı qadağan etmir. Yerli banklar VCT-lərin öz qrant vəsaitlərinə çıxış əldə etmələrinə icazə verməzdən əvvəl qrantın qeydiyyatını yoxlayırlar.

200 manatdan artıq məbləğdə nağd ianələrin qəbul edilməsinə görə müəyyən edilmiş cərimə bu cür ianələr vasitəsilə VCT-lərin topladığı vəsaitə mütənasib deyil (cərimə 10000 manata qədərdir, təxminən 5000 Avro).[51] Xoşbəxtlikdən, 2017-2018-ci illər ərzində bununla bağlı hər hansı cərimənin tətbiq edilməsi halı müəyyən edilməmişdir.

### STANDART 2: YERLİ MƏNBƏLƏRLƏ MÜQAYİSƏDƏ XARİCİ VƏ BEYNƏLXALQ MƏNBƏLƏRDƏN ƏLDƏ EDİLMİŞ MALİYYƏ VƏ MADDİ RESURSLARA FƏRQLİ YANAŞMA MÖVCUD DEYİL.

Xarici mənbədən əldə edilən istənilən gəlirin Ədliyyə Nazirliyində qeydiyyatı tələb olunur. Bu tələb, xarici müştərilərlə VCT-lərin bağladığı xidmət müqavilələrinə də şamil olunur ki, bu da Azərbaycana xas xüsusi bir təcrübədir.

2014-cü ildən ötən müddət ərzində qanunvericiliyə bir sıra məhdudlaşdırıcı müddəalar daxil edilmişdir ki, (məs., donorun Azərbaycanda nümayəndəliyi olmalıdır, Ədliyyə Nazirliyi ilə xüsusi saziş imzalamalı, layihənin maliyyə-iqtisadi məqsədəuyğunluğunu sübut etməlidir), bu da VCT-lərin xarici qrantlara, ianələrə və xidmət müqavilələrinə çıxışını ciddi şəkildə məhdudlaşdırmışdır. Bütün bunlar qeydiyyat tələb edir və 2014-cü ilin ortalarından 2017-ci ilin ortalarına qədər Azərbaycanda çox az xarici qrant qeydə alınmışdır. Vəziyyət 2017-ci ilin ortaları və 2018-ci ildən etibarən düzəlməyə başlamışdır. Nəticədə, ƏN Yaponiya səfirliyindən ən azı on iki qrant, AB, BMT-dən bir neçə, Avrasiya Fondundan müqavilələr və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyindən (USAID) ən azı bir qrant qeydiyyata almışdır.

Qanunvericilik, həmçinin VCT-lərdən xarici xidmət müqavilələrini qeydiyyata almalarını tələb edir. Təcrübədə xidmət müqaviləsinin qeydiyyatı qrant almaqdan daha asandır, lakin bütün məbləğ vergiyə cəlb olunur.

Xaricdən maliyyələşmə üçün qanunvericilikdə cinayət təqibi yoxdur. Eyni zamanda, xarici qrant alanlar neqativ ləqəblərlə damğalanmırlar. 2017-2018 illər ərzində xaricdən maliyyələşən təşkilatların dövlət tərəfindən dəstəklənən media və ya hökumət tərəfindən ləkələnməsi və ya onlara qarşı hücum halları mövcud olmamışdır.

51 İXM, 2015-ci il, maddə 466.2.

**SAHƏ 3 ÜZRƏ XÜSUSİ TÖVSIYƏLƏR:**

- Qrantların və ianələrin qeydiyyatını sadələşdirmək;
- Xidmət müqavilələrinin qeydiyyatı tələbinin ləğv edilməsi;
- Əcnəbilər və vətəndaşlığı olmayan şəxsləri VCT-lərə ianələr vermək hüququ ilə təmin etmək;
- İanə qutularının tənzimlənməsinin hüquqi çərçivəsini müəyyən etmək və donorun kimliyinin müəyyənləşdirilməsini çətin və ya qeyri-mümkün edəcək digər mexanizmlərin istifadəsinə icazə vermək;
- Kiçik ianələr barədə hesabatın təqdim edilməsi zərurətini aradan qaldırmaq.
- Kiçik məbləğdə ianələrdən ibarət anonim ianələrin qadağan edilməsini ləğv etmək.

## 4.4 Dinc toplaşmaq azadlığı

### STANDART 1: HƏR KƏS TOPLANTILAR TƏŞKİL ETMƏK VƏ ONLARDA İŞTİRAK ETMƏKLƏ DİNC TOPLAŞMAQ AZADLIĞI HÜQUQUNDAN SƏRBƏST ŞƏKİLDƏ İSTİFADƏ EDƏ BİLƏR.

Azərbaycanda dinc toplaşmaq azadlığına konstitusiya ilə qarantiya verilir. Buna baxmayaraq, mövzu beynəlxalq təşkilatların mövqeyinə görə həssas olaraq qalmaqdadır.

Ayrı-ayrı şəxslər və qruplar, o cümlədən VCT-lər üçün ayrı-seçkilik edilmədən dinc toplaşmaq azadlığına, Azərbaycanın Konstitusiyası (maddə 49), həmçinin ölkənin BMT, AŞ, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) üzv olması ilə əlaqədar öhdəlikləri, insan hüquqları ilə bağlı beynəlxalq və regional müqavilələrə[52] qoşulması, habelə, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 1-ci maddəsi ilə təminat verilir.[53]

Azərbaycan Respublikası Konstitusiyasının[54] 49-cu maddəsinə əsasən hər kəsin başqaları ilə birlikdə müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə, dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ vardır. Maddənin ictimai toplantılar üçün ictimai qaydanı və ictimai əxlaqı pozmamaq şərtini ehtiva edən tələbi 11 oktyabr 2016-cı il tarixində[55] referendum düzəlişi ilə Konstitusiyaya daxil edilmişdir. Lakin "ictimai qaydanı" və "ictimai əxlaqı" müəyyən edən heç bir hüquqi norma mövcud deyil. Bundan əlavə, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 6-cı maddəsinə əsasən, 18 yaşına çatmamış şəxslər valideynlərinin və ya digər qanuni nümayəndələrinin yazılı razılığı olmadan və fəaliyyət qabiliyyəti məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında məhdudlaşdırılmış şəxslər himayəçilərinin yazılı razılığı olmadan dinc toplantının təşkilatçısı ola bilməzlər.

---

52 25 dekabr 2001-ci ildə ratifikasiya edilmiş İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi üzrə Avropa Konvensiyasının 10-cu maddəsi, https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf.

53 Sərbəst toplaşmaq azadlığı haqqında 13 noyabr, 1998-ci il tarixli Qanun, http://www.e-qanun.az/framework/3229.

54 Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il Konstitusiyası 26 sentyabr 2016-cı il tarixli Referendumla edilmiş son dəyişikliklərlə, http://e-qanun.az/framework/897.

55 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqqında Mərkəzi Seçki Komissiyasının qərarı, http://e-qanun.az/framework/33891.

«Sərbəst toplaşmaq azadlığı haqqında» Qanunun 7-ci maddəsində[56] qeyd olunur ki, "sərbəst toplaşmaq azadlığı yalnız qanunda nəzərdə tutulan və demokratik cəmiyyətdə zəruri olan hallarda, milli təhlükəsizlik və ya ictimai təhlükəsizlik mənafeləri üçün, iğtişaşların və ya cinayətin qarşısının alınması, sağlamlığın və mənəviyyatın, digər şəxslərin hüquq və azadlıqlarının qorunması üçün məhdudlaşdırıla bilər." "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 7-ci və 8-ci maddələri toplantının məhdudlaşdırılması, qadağan edilməsi və ya dayandırılması üçün əsasları dəqiq müəyyənləşdirir. "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 5-ci maddəsinə əsasən təsadüfi toplantılar üçün yazılı bildirişin təqdim olunması tələb olunmur, lakin Qanunun 7 və 8-ci maddələrində göstərilən tələblərə uyğun olaraq, təsadüfi toplantılar məhdudlaşdırıla və ya dayandırıla bilərlər.

Təcrübədə sərbəst toplaşmaq azadlığı Azərbaycanda həssas bir məsələdir və beynəlxalq təşkilatlar, o cümlədən BMT İnsan Haqları Komitəsi[57] və BMT-nin insan hüquqları müdafiəçiləri üzrə Xüsusi Məruzəçisi[58] dinc toplaşmaların özbaşına rədd edilməsi və dağıdılması halları barədə məlumat vermişlər.

Lakin, bu vətəndaş cəmiyyətinə daha az, siyasi partiyalara daha çox aid olsa da, bu məsələdə VCT-lər hələ də texniki problemlərdən azad deyillər.

### STANDART 2: DÖVLƏT DİNC TOPLANTILARA ŞƏRAİT YARADIR VƏ QORUYUR

VCT-lər regionlardan daha çox Bakıda dinc toplaşmaq azadlığı hüquqlarından istifadə edirlər. Bu regionlarda tədbirlərin keçirilməsi üçün icazə alınmasından ibarət qeyri-rəsmi tələblə əlaqədardır.

"Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 5-ci maddəsində dinc toplantıların təşkilatçılarından səlahiyyətli orqanları toplantı barədə 5 iş günü əvvəlcədən xəbərdar etmək tələb olunur ki, bu da təcrübədə icazə almaq zəruriliyi kimi şərh olunur (hansı ki təcrübədə çox vaxt rədd edilir).[59] Eyni qanun icazə verilməsindən imtinanın əsaslarını da (7-9-cu maddələr) müəyyən edir ki, onların pozuntusu cinayət sayılır və iki ilə qədər azadlıqdan məhrumetmə ilə cəzalandırılır.[60] İnzibati Xətalar Məcəlləsinin 180-ci maddəsi[61] "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təşkil edilən yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin keçirilməsinə mane olmağa görə, fiziki şəxslər üçün 500-3000 AZN (təxminən 270 - 1600 Avro), hüquqi şəxslər üçün isə 15.000 - 30.000 AZN (təxminən 7.900 - 15.800 Avro) miqdarında cərimə tətbiq edilməsini nəzərdə tutur. Dövlət orqanlarının dinc toplaşmalarla bağlı qərarlarına məhkəmə qaydasında baxıla bilər ("Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun 11-ci maddəsi). Lakin, məhkəmə sisteminin ləng işləməsi səbəbindən, məhkəmə araşdırmasının planlaşdırılan tarixdən əvvəl baş vermə ehtimalı çox azdır. Bundan əlavə, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dövlət orqanlarının dinc toplaşmaq məsələlərinə dair qərar-

56 Sərbəst toplaşmaq azadlığı haqqında 13 noyabr, 1998-ci il tarixli Qanun, http://www.e-qanun.az/framework/3229.

57 Azərbaycanın dördüncü dövri hesabatı üzrə (CCPR/C/AZE/CO/4) İnsan Hüquqları Komitəsinin yekun müşahidələri, noyabr 2016.

58 Azərbaycana missiyası üzrə BMT-nin Xüsusi Məruzəçisinin insan hüquqları müdafiəçilərinin vəziyyəti barədə hesabatı, (A/HRC/34/52/Add.3) fevral 2017.

59 Fokus qrup 3, #1 and #2.

60 Cinayət Məcəlləsi, maddə 169.1.

61 29 dekabr 2015-ci il tarixli İXM, http://e-qanun.az/code/24

larını mübahisələndirmək üçün müxtəlif hüquqi mexanizmlər də müəyyən edilmişdir.[62]

Təcrübədə VCT-lərin toplaşmaq hüququna toplaşmağın kifayət qədər mürəkkəb bir prosedur olduğu[63] regionlarda və böyük şəhərlərdə müxtəlif cür yanaşılır (aşağıda Standart 3-ə baxın). Bununla belə, bir çox regional VCT-lər təsdiq etdi ki, Prezident Aparatından bölgələrdə tədbirlərin keçirilməsinə icazə tez bir zamanda verilsə də, icazənin yerli icra hakimiyyəti orqanları tərəfindən icrasında problemlər mövcuddur.

### STANDART 3: DÖVLƏT DİNC TOPLANTILARIN TƏŞKİLATÇILARI VƏ YA İŞTİRAKÇILARININ ÜZƏRİNƏ GƏRƏKSİZ ÖHDƏLİKLƏR QOYMUR

Hökumətin istifadəsində olan yerlərin VCT-lərə pulsuz və ya güzəştli şərtlərlə verilməsi təcrübəsi mövcuddur. Lakin, regionlarda tədbirlərin keçirilməsi üçün icazə alınmasından ibarət qeyr-rəsmi tələb Azərbaycanda VCT-lər üçün problemlər yaradır.

Qanun VCT-lərin təşkil etdiyi tədbirlər barədə hökumətə məlumat verməyi tələb etməsə də (yuxarıda təsvir edilmiş, VCT-lərin iştirak etmədiyi kütləvi mitinqlərdən başqa), bütün bölgələrdə icra hakimiyyətlərindən qeyri-rəsmi “icazələr” sistemi tətbiq olunur. Üstəlik, VCT-lər dövlət orqanlarına və ya bəzi hallarda Prezident Aparatına müraciət etmək məcburiyyətində qalırlar ki, onlar da öz növbələrində yerli icra hakimiyyəti orqanlarına VCT tədbirinin təşkilinə razılıqları barədə məlumat verirlər.[64] Bu müraciətlər səlahiyyətli orqanların istəyi ilə rədd edilə bilər. Nəticədə, sorğuda iştirak edənlərin 24 faizi müraciətlərinin rədd edildiyini bildirmişdir. “İcazələr” sisteminin ən dağıdıcı təsiri odur ki, bəzən cavab çox gec gəlir, bu da VCT-lərin fəaliyyətini iflic edir və işlərinin keyfiyyətinə təsir göstərir.[65] VCT-lər dövlət qurumlarının digər dövlət orqanlarına etimadsızlığı ilə bağlı da narahatlıq keçirirlər, çünki bölgələrdə bu təcrübə dövlət donorları tərəfindən verilən və Ədliyyə Nazirliyi tərəfindən müvafiq qaydada qeydiyyata alınmış qrantlara münasibətdə də oxşar şəkildə tətbiq olunur.[66]

İcazələr qanunla müəyyən edilmədiyi üçün, onları əldə etmək üçün nə hər hansı xərc mövcud deyil, nə də qanuni sanksiyalar tətbiq edilmir. Hələ ki, icazəsiz tədbirlər təşkilatçılara qarşı yersiz təzyiqlərlə nəticələnə bilər. Lakin, bu təcrübə paytaxt Bakı şəhərində və Mingəçevir, bu yaxınlarda, həmçinin, Gəncə kimi bir sıra digər iri şəhərlərdə tətbiq edilmir və VCT-lər öncədən ünvanlı dəvətlər göndərməklə və ya sosial mediadan istifadə etməklə kütləvi tədbirlər təşkil etməkdə azaddırlar.

Son zamanlarda dövlət qurumlarının tədbirlər keçirmək üçün VCT-lərə pulsuz yerlər təklif etmələri (məsələn, Olimpiya kompleksləri, H. Əliyev mərkəzləri, Gənclər mərkəzləri və Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdindəki qadın resurs mərkəzləri) ya xoş niyyət və ya vətəndaş cəmiyyəti ilə əməkdaşlıq etmək istəyi ya da, VCT-lərin fəaliyyətini nəzarətdə saxlamaq üçün bir vasitə kimi şərh edilə bilər.

62 İnzibati Prosessual Məcəllə, son dəyişikliklər 07 aprel 2017-ci il, http://e-qanun.az/code/20

63 Fokus qrup 1, # 2; Fokus qrup 1, # 7.

64 Fokus qrup 3, # 9.

65 Fokus qrup 3, # 2.

66 Fokus qrup 3, # 12.

**STANDARD 4: HÜQUQ-MÜHAFİZƏ ORQANLARI DİNC TOPLAŞMALARI DƏSTƏKLƏYİR VƏ NÜMAYƏNDƏLƏRİNİN HƏRƏKƏTLƏRİNƏ GÖRƏ CAVABDEHLİK DAŞIYIRLAR**

«Sərbəst toplaşmaq azadlığı haqqında» Qanunda (maddə 14) dinc toplantılar zamanı güc tətbiq edilməsi ilə bağlı dəqiq qaydalar mövcuddur. Buna baxmayaraq, sorğuya cəlb edilmiş bəzi VCT-lər keçmişdə "icazə" alınmaması səbəbinə görə VCT tədbirlərinin hüquq-mühafizə orqanları tərəfindən dağıdılması halları barədə məlumat vermişlər.[67]

**SAHƏ 4 ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:**

- Qanuna düzəlişlər etmək və dinc toplaşmaq üçün icazə almaq əvəzinə, öncədən xəbərdarlıq etmək təcrübəsini tətbiq etmək.
- Dövlət orqanlarının VCT-lərin dinc toplaşmalarını qadağan edən qərarlarının tez bir zamanda mübahisələndirilməsini təmin etmək üçün məhkəmə baxışını sürətləndirmək.

## 4.5 Qərarların qəbulunda iştirak etmək hüququ

**STANDART 1: HƏR KƏS QƏRARLARIN QƏBULUNDA İŞTİRAK ETMƏK HÜQUQUNA MALİKDİR.**

Azərbaycanda VCT-lərin qərarların qəbulunda iştirakı üçün çoxsaylı vasitələr mövcuddur. Bunların ən geniş yayılmış formaları işçi qruplarında, ictimai şuralarda və ictimai müzakirələrdə VCT-lərin iştirakıdır. Bununla belə, elə hallar olur ki, VCT-lərə birbaşa təsir göstərən qərarlarla bağlı onlarla məsləhətləşmələr aparılmır.

Qərarların qəbulu prosesində vətəndaşların birbaşa və seçilmiş nümayəndələri vasitəsilə iştirak etmək hüququ Konstitusiyada təsbit olunub.[68] 54.1-ci maddəyə əsasən, "Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır"[69] və bu hüquq ölkənin beynəlxalq öhdəliklərinin ayrılmaz tərkib hissəsini təşkil edir.[70] Bundan başqa, bu hüquq "Qeyri-hökumət təşkilatları haqqında" qanunda"[71] və xüsusilə son dövrlərdə qəbul edilmiş "İctimai iştirakçılıq haqqında" qanunda[72] ətraflı şəkildə öz əksini tapıb. Vətəndaşların və VCT-lərin qərarların qəbulu prosesində iştirakı üçün qanunvericilik bazasında bir sıra mexanizmlər müəyyən edilib ki, buraya ictimai şuralar, ictimai dinləmələr və müzakirələr, qanunvericilik layihələrinin ictimai müzakirəsi, qanunvericilik layihələrinə dair yazılı rəylərin təqdim edilməsi, habelə ictimai rəyin öyrənilməsi daxildir. Qanunvericilik layihələrinin ictimai müzakirəsi "İctimai iştirakçılıq haqqında" qanunun 18-ci maddəsinə uyğun olaraq parlament (Milli Məclis) tərəfindən təşkil edilir. Bu qanun qəbul edilməzdən

---

67 Fokus qrup 3, #1 and FQ 3, #2.

68 Azərbaycan Respublikasının Konstitusiyası, 1, 2, 50, 54, 55, 57, 58, 94, 96 və 130-cu maddələr, 27 noyabr 1995-ci il, son dəyişikliklər 26 sentyabr 2016-cı ildə referendum vasitəsilə edilib, http://e-qanun.gov.az/framework/897.

69 Konstitusiya, maddə 54.1.

70 Azərbaycan Respublikasının "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi, ictimaiyyətin qərar qəbul edilməsində iştirakı və ədalət məhkəməsinin açıq keçirilməsi haqqında" BMT-nin Konvensiyasına [Orxus Konvensiyası] qoşulması barəsində qanun, 9 noyabr 1999-cu il, http://e-qanun.az/framework/5205.

71 "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanun, 13 iyun 2000-ci il, http://e-qanun.az/framework/511.

72 "İctimai iştirakçılıq haqqında" qanun, 1 iyun 2014-cü ildə qüvvəyə minib, http://e-qanun.gov.az/framework/26879.

əvvəl vətəndaş cəmiyyəti tərəfindən geniş müzakirə edilib.[73] Digər normativ-hüquqi aktlarda daha konkret mexanizmlər nəzərdə tutulur, məsələn, referendum, rəy sorğusu, məhəllə komitələri (yerli səviyyədə fəaliyyət göstərirlər) və vətəndaşların müraciətləri[74], hərçənd ki, bu mexanizmlər vasitəsilə VCT-hökumət əməkdaşlığı nümunələri məlum deyil.

"İctimai iştirakçılıq haqqında" 22 noyabr 2013-cü il tarixli qanunda qanun layihələrinin qəbuluna qədər ictimaiyyətin qanun layihələrini müzakirə etmək və onlara dair rəylərini təqdim etmək hüququ nəzərdə tutulur və ən önəmlisi, bu hüququn pozulmasının hüquqi nəticələri müəyyən edilir. "İctimai iştirakçılıq haqqında" qanunda vətəndaşların və vətəndaş cəmiyyəti institutlarının hökumət qərarlarının qəbulunda aşağıdakı üsullarla iştirakı nəzərdə tutulur: 1) dövlət həyatının və ictimai həyatın müxtəlif sahələrində dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi; 2) ümummilli və yerli səviyyələrdə qərarların qəbul edilməsi; 3) mərkəzi və yerli icra hakimiyyəti və özünüidarə orqanlarının fəaliyyəti üzərində ictimai nəzarətin təşkil edilməsi; 4) dövlət orqanlarının cəmiyyətlə məsləhətləşmələri; 5) ictimai rəyin nəzərə alınması; 6) ictimai rəyin öyrənilməsi; 7) qanunvericilik layihələrinin ictimai müzakirəsi; və 8) yazılı məsləhətləşmələr.

2014-cü ildə ictimai müzakirələr kəskin şəkildə azaldı, amma VCT-lərə münasibətdə hökumətin daha stimullaşdırıcı yanaşması ilə paralel olaraq 2018-ci ilin ikinci yarısından etibarən bu sahədə bir qədər canlanma baş verdi.[75] Beləliklə, rəyi soruşulanların 80 faizi milli səviyyədə qərarların qəbulunda iştirak etməyiblər; bununla belə, onların təxminən yarısı (48 faizi) ilə siyasətin və qanunvericilik layihələrinin hazırlanmasında yerli səviyyədə məsləhətləşmələr aparılıb. Qanun dövlət orqanlarının ictimai şura yaratmasını onların vəzifəsi kimi deyil, hüququ kimi müəyyən edir; buna görə də, bizdə olan məlumata əsasən, indiyədək yalnız 10 dövlət orqanı ictimai şura yaradıb[76] və bundan əlavə regionlarda yerli icra hakimiyyəti orqanları yanında bir beçə şura vardır.[77]

Bəzi dövlət orqanları digərlərinə nisbətən müzakirələrə daha açıqdırlar[78] və geniş müzakirələr təşkil edirlər, həmin müzakirələr o cümlədən Azərbaycanın sınaqdan çıxmış mexanizmi olan Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması (Açıq Hökumət Tərəfdaşlığı (AHT) Platforması) vasitəsilə keçirilir, o, 2016-cı ildə yaradılıb və 10 dövlət orqanını və 44 VCT-ni özündə birləşdirir,[79] məsələn, Dövlət Gömrük Komitəsi[80] və Əmlak

73 Qərb-Şərq İdarəetmə İnstitutunun (EWMI) Azərbaycanda Sosial-İqtisadi İnkişaf Fəaliyyətləri (SEDA) proqramı və QHT-lərə Dövlət Dəstəyi Şurası tərəfindən keçirilmiş "İctimai iştirakçılıq: hüquqi və praktiki məsələlər" mövzusunda milli konfrans, Gəncə, 13 noyabr 2014-cü il, https://ewmi.org/News/SEDANov2014; Qeyri-Kommersiya Hüququ üzrə Avropa Mərkəzi (ECNL), Azərbaycan Milli QHT Forumu, Qeyri-Kommersiya Hüququ üzrə Beynəlxalq Mərkəz (ICNL) və "Counterpart International" təşkilatı tərəfindən keçirilmiş "Dövlət siyasətində vətəndaş iştirakçılığı: bu nə üçün əhəmiyyətlidir?" mövzusunda konfrans, Bakı, 24 noyabr 2014-cü il, http://ecnl.org/conference-on-citizen-participation-held-in-azerbaijan-2/.

74 "Referendum haqqında" qanun, 30 dekabr 1997-ci il, http://www.e-qanun.az/framework/4604; "Bələdiyyələrin məhəllə komitələri haqqında Nümunəvi Əsasnamənin təsdiq edilməsi barədə" qanun, 8 may 2001-ci il, http://www.e-qanun.az/alpidata/framework/data/3/f_3547.htm; "Vətəndaşların müraciətləri haqqında" qanun, 30 sentyabr 2015-ci il, http://www.e-qanun.az/framework/31281.

75 Ətraflı müsahibə № 5.

76 Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Komitəsi, Dövlət İmtahan Mərkəzi və ASAN.

77 1-ci hədəf qrupu, № 3.

78 1-ci hədəf qrupu, № 8.

79 AHT Platformasına yeni üzvlər qəbul edilib, 3 yanvar 2019-cu il tarixli məlumat, http://ogp.org.az/az/index.php/2019/01/03/azerbaycan-aciq-hokumet-platformasina-yeni-uzvler-qebul-edilib/.

80 Gömrük orqanlarının fəaliyyətində şəffaflıq və hesabatlılıq" mövzusunda ictimai müzakirə, 22 may 2018-ci il, http://ogp.org.az/index.php/2018/05/22/transparency-and-accountability-in-the-performance-of-customs-authorities/.

Məsələləri üzrə Dövlət Komitəsi[81] buraya daxildir. Bununla belə, xüsusən regionlarda VCT-lərlə əməkdaşlıq birbaşa mərkəzi hökumət tərəfindən "yuxarıdan" bəyənilmədiyi təqdirdə dövlət orqanlarının çoxu VCT-lərə şübhə ilə yanaşırlar.[82] Qərarların qəbulu prosesində iştirak etmələri VCT-lər üçün mənfi nəticələr doğurmur, çünki onlar dövlət orqanlarının mülahizəsi əsasında seçilirlər.[83]

Elə hallar olub ki, qanunvericilik aktı maraqlı tərəflərlə müzakirə aparılmadan qəbul edilib[84] və sonradan ləğv olunub, çünki onun praktikada tətbiqi, demək olar ki, qeyri-mümkün olub.[85]

### STANDART 2: DÖVLƏT SIYASƏTININ HAZIRLANMASI, HƏYATA KEÇIRILMƏSI VƏ MONITORINQINDƏ VCT-LƏRIN MÜTƏMADI, AÇIQ VƏ SƏMƏRƏLI IŞTIRAKINA ŞƏRAIT YARADAN AYDIN, SADƏ VƏ ŞƏFFAF MEXANIZMLƏR VƏ PROSEDURLAR MÖVCUDDUR.

Qərarların qəbulu prosesində VCT-lərin iştirakı geniş istifadə edilən praktika deyil. Bununla belə, uğurlu nümunələr mövcuddur, məsələn, QHT-lərə Dövlət Dəstəyi Şurası buna misaldır.

"İctimai iştirakçı haqqında" qanunun 18-ci maddəsi və yardımçı normativ hüquqi aktlar[86] parlamentin (*Milli Məclisin*) üzərinə belə bir vəzifə qoyur ki, qanun layihəsinin parlamentdə birinci oxunuşuna qədər üç ay müddətində öz internet saytı vasitəsilə bütün maraqlı tərəflərin rəy və təkliflərini toplasın. Həmin qanunda siyasətin həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi prosesində məşvərətçi qurumlar vasitəsilə VCT-lərin iştirakının təmin edilməsi nəzərdə tutulur. Lakin bu qanuna ictimai iştirakçılığın səmərəliliyini azaldan bəzi müddəalar daxildir və onlar, eləcə də real mexanizmlərin təmin edilməsi üçün bir çox yardımçı normativ hüquqi aktların olmaması ictimai iştirakçılığın praktikada tətbiqinə çoxlu problemlər yaradır.[87] VCT-lərlə əməkdaşlıq edən azsaylı dövlət orqanlarının çoxu VCT-lərin iştirakçılığına adi formallıq kimi baxırlar və VCT-lərə məşvərətçi roldan daha çox, rəmzi rol ayırırlar[88], qərarların qəbulu prosesində VCT-lərin iştirakı halları olduqca azdır[89]. Bununla belə, bəzi uğurlu mexanizmlər vardır ki, VCT-lərin müəyyən məhdud təsirə malik olmasına imkan verir, məsələn, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın[90] və Ombudsman yanında Milli Preventiv Qrupun[91] nəzdində qanunvericilik üzrə fəaliyyət göstərən işçi

81 "Daşınmaz əmlakın qeydiyyatında şəffaflıq, əlçatanlıq və innovasiyalar" mövzusunda ictimai dialoq, 2 oktyabr 2018-ci il, "Trend" informasiya agentliyi, https://az.trend.az/business/2959445.html?fbclid=IwAR3AheoEH1jdPMAHqGl_VRjZURUXp4NwqHGFJH0HUsJajXBh-dSwVyq18qE.

82 Ətraflı müsahibə № 2.

83 2-ci hədəf qrupu, № 2.

84 4-cü hədəf qrupu, № 3.

85 Bu səbəbdən Nazirlər Kabinetinin 31 yanvar 2019-cu il tarixli 30 nömrəli qərarı ilə təsdiq edilmiş "Meşə təsərrüfatına dəymiş ziyana görə maddi məsuliyyətə cəlb edilmə qaydaları" (http://www.e-qanun.az/framework/28863 ) Nazirlər Kabinetinin 6 fevral 2019-cu il tarixli 41 nömrəli müvafiq qərarı ilə ləğv edilib, http://www.e-qanun.az/framework/41385.

86 "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə", Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli qərarı ilə təsdiq edilib, http://e-qanun.az/framework/27803; "Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası", Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 172 nömrəli qərarı ilə təsdiq edilib, http://e-qanun.az/framework/27804. Qanun layihələri ilə əlaqədar ictimai dinləmələrin keçirilməsi üçün qaydalar Milli Məclisin Daxili Nizamnaməsində müəyyən edilib.

87 Sahib Məmmədov, İctimai iştirakçılıq, Monitorinq hesabatı, Bakı, 2017, http://ogp.org.az/wp-content/uploads/2017/02/PUBLIC-PARTICIPATION.pdf.

88 Sahib Məmmədov, İctimai iştirakçılıq, Monitorinq hesabatı, Bakı, 2017.

89 2-ci hədəf qrupu, № 10.

90 Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, http://www.antikorrupsiya.gov.az.

91 Ombudsman yanında Milli Preventiv Qrup, http://www.ombudsman.gov.az/en/view/pages/70/members-of-national-preventive-group.

qruplarında VCT nümayəndələrinin iştirakı; dövlət orqanlarının elektron xidmətləri tətbiq etmələrini monitorinq edən səmərəli mexanizm olan ASAN[92] yanında Elektron xidmətlərin təşviqi üzrə İctimai Şura[93] və penitensiar müəssisələri monitorinq edən Ədliyyə Nazirliyi yanında İctimai Komitə[94] buna misaldır. Həmçinin QHT-lərə Dövlət Dəstəyi Şurası hökumətin qərarlarına VCT-lərin təsir etməsi üçün yaxşı müzakirə platforması təşkil edir. Belə ki, 2018-ci ildə Şura VCT-lərlə "Sosial sifariş haqqında" qanun layihəsinin və "Peşə birlikləri haqqında" qanun layihəsinin geniş müzakirəsini təşkil edib[95], bu layihələr hələ qəbul edilməyib.[96] Baxmayaraq ki, konkret mövzu ilə bağlı ictimai müzakirələrdə digər VCT-lər də iştirak edə bilərlər, onların rəyləri çox az hallarda qəbul edilir, rəy və təklifləri ilə əlaqədar cavablar da nadir hallarda təqdim edilir.[97]

### STANDART 3: VCT-LƏR ONLARIN SƏMƏRƏLİ İŞTİRAKÇILIĞI ÜÇÜN ZƏRURİ OLAN MƏLUMATLARA ÇIXIŞ ƏLDƏ ETMƏK İMKANINA MALİKDİRLƏR.

Dövlət orqanları qanun layihələrini ictimaiyyətə açıqlamadıqda və ya VCT-lərlə paylaşmadıqda həmin layihələri əldə etmək, bir qayda olaraq, VCT-lər üçün asan olmur. Bu sahədə ayrı-ayrı dövlət orqanlarının təcrübəsi də fərqlənir.

2005-ci ildə Azərbaycan BMT-nin Korrupsiya əleyhinə Konvensiyasını[98] ratifikasiya edib və dövlət idarəçiliyi sisteminin şəffaflığını təmin etmək öhdəliyini götürüb. Qanuna əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanları öz internet saytlarında xüsusi bölmə ayıraraq normativ hüquqi aktların və qanunların layihələrini orada yerləşdirməli və saytlarında vahid "elektron hökumət" portalı ilə əlaqələndirici linkin olmasını təmin etməlidirlər.[99] Qanunvericilikdə həmçinin dövlət orqanlarının qərarların qəbulu prosesi ilə bağlı bütün informasiyaları dərc etmələrinin şərtləri və müddətləri (ictimaiyyətin rəy və təkliflərinin toplanması üçün 60 gün) nəzərdə tutulub.[100] Lakin bəzi hallarda Milli Məclisin bu sahədə fəaliyyətləri istisna olmaqla bu müddəalar nadir hallarda icra olunur[101]. Həmçinin vətəndaşların rəylərinin toplanması üçün vahid onlayn platforma da yoxdur. "İnformasiya əldə etmək haqqında" qanunda[102] ilk öncə ayrıca qurum olaraq İnformasiya ombudsmanının təyin edilməsi nəzərdə tutulsa da, 2011-ci ildə qanuna edilmiş dəyişikliklə bu səlahiyyətlər İnsan hüquqları üzrə müvəkkilə (Ombudsman) verildi.[103] Formal olaraq Ombudsman geniş səlahiyyətlərə malik olsa da, bütün müşahidəçilər razılaşırlar ki, Ombudsman Aparatı praktiki olaraq informasi-

---

92 Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, www. asan.gov.az. ASAN yanındakı bu şura eyni qurumun yanında 2013-cü ildə yaradılmış ümumi ictimai şuradan fərqlidir.

93 ASAN yanında Elektron xidmətlərin təşviqi üzrə İctimai Şura, www.egov.org.az.

94 Ədliyyə Nazirliyi yanında İctimai Komitə, http://www.justice.gov.az/categories/196.

95 QHT-lərə Dövlət Dəstəyi Şurasının 22 aprel 2019-cu il tarixli məktubu.

96 "Sosial sifariş haqqında" və "Peşə birlikləri haqqında" qanun layihələri hazırlanır, 23 yanvar 2019-cu il, http://www.aztv.az/readnews.php?lang=az&id=34726.

97 2-ci hədəf qrupu, № 1 və 2.

98 United Nations Convention Against Corruption. Doc. A/58/422. December 14, 2005. http://www.unodc.org/documents/treaties/UNCAC/Publications/Convention/08-50026_E.pdf.

99 "İnformasiya əldə etmək haqqında" qanun, 30 sentyabr 2005-ci il, maddə 29.1.10, http://www.e-qanun.az/framework/11142.

100 "İctimai dinləmə və ictimai müzakirələrin keçirilməsi Qaydası".

101 2-ci hədəf qrupu, № 1.

102 "İnformasiya əldə etmək haqqında" qanun, 30 sentyabr 2005-ci il, maddə 29.1.10, http://www.e-qanun.az/framework/11142.

103 Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda (28 dekabr 2001-ci il) dəyişikliklər edilməsi barədə Konstitusiya Qanunu (24 iyun 2011-ci il), http://www.e-qanun.az/framework/22060.

yaların əldə edilməsini səmərəli şəkildə təmin etmək iqtidarında deyil, əsasən ona görə ki, bu qurum bu sahədə xüsusi səriştəyə malik deyil.[104]

2017-2018-ci illərdə dövlət orqanlarının iri həcmdə informasiyaları, o cümlədən təfsilatlı illik hesabatları öz internet saytlarına yükləmələri sayəsində informasiyalara çıxış imkanı əhəmiyyətli dərəcədə yaxşılaşsa da,[105] dövlət orqanları hansı məlumatları açıqlamaq məsələsində diskresion səlahiyyətə malikdirlər.[106] Praktikada yazılı sorğu əsasında məlumat əldə etmək çox çətindir,[107] belə ki, "İnformasiya əldə etmək haqqında" qanunun 21.2.3-cü maddəsində boşluq vardır ki, bu da dövlət orqanlarının məlumat verməkdən imtina etmələrini texniki səbəblərlə əsaslandırmalarına imkan verir.[108] Buna görə də respondentlərin təxminən yalnız yarısı (56 faiz) bildiriblər ki, qanun layihələrini əldə etməyi asan hesab edirlər. Bundan əlavə, sorğu formaları həddən artıq çox şəxsi məlumatlar tələb edir ki, bu da sorğu verənləri açıq-aşkar çəkindirmə cəhdidir.[109] Həmçinin qeyd etmək lazımdır ki, bir çox hallarda VCT-lər informasiya sorğusu verməyə çox da maraq göstərmirlər. Respondentlərin 62 faizi bildiriblər ki, yaxın keçmişdə dövlət orqanlarından heç bir informasiya istəməyiblər.

### STANDART 4: QƏRARLARIN QƏBULUNDA İŞTİRAK SİYASİ FƏALİYYƏTLƏRDƏN VƏ LOBBİÇİLİKDƏN FƏRQLƏNİR.

Bir qayda olaraq, Azərbaycan qanunvericiliyi dövlət siyasəti məsələlərinin hazırlanmasında və müzakirəsində VCT-lərin iştirakını məhdudlaşdırmır, hərçənd ki, praktikada tənqidçi VCT-lər təzyiqlə üzləşirlər.

Tənqidçi VCT-lərə qarşı təzyiq halları barədə yerli və beynəlxalq təşkilatlar tərəfindən məlumat verilib.[110] "Qrant haqqında" qanunun 1-ci maddəsinin 4-cü bəndinə əsasən: 1) siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri; 2) qanunların və digər qanunvericilik aktlarının qəbul edirilməsi üzrə lobbiçilik fəaliyyəti; 3) siyasi reklam və yaxud 4) hər hansı siyasi təşkilatın (təşkilatların) və ya siyasi xadimin (xadimlərin) seçki kampaniyasının maliyyələşdirilməsi üçün istifadə edilən maddi yardım qrant sayılmır.[111] Həmçinin QHT Qanununun 2.4-cü maddəsi prezident, parlament və bələdiyyə seçkilərində VCT-lərin iştirakına, habelə siyasi partiyalara maliyyə və digər maddi yardım göstərmələrinə icazə vermir. Praktikada VCT-lər lobbiçi və ya peşəkar vəkil qurumu kimi qeydiyyata alınmadan və ya hər hansı digər əlavə inzibati və ya maliyyə yükü tələb olunmadan ictimai maraqların müdafiəsi fəaliyyətləri ilə məşğul olmaqda sərbəstdirlər. Bununla belə, VCT-lərin ictimai maraqları müdafiə etmək potensialı VCT-lərin üzbəüz təmaslara əsaslanan təşviqat tədbirləri (məsələn, dəyirmi masalar, görüşlər və digər ictimai tədbirlər) keçirmələrinin maliyyələşdirilməsinin məhdudluğu səbəbindən

104 Ətraflı müsahibə № 3.

105 1-ci hədəf qrupu, № 5 və 2.

106 Ətraflı müsahibə № 2.

107 1-ci hədəf qrupu, № 3.

108 "İnformasiya əldə etmək haqqında" qanun, 30 sentyabr 2005-ci il, maddə 21. Sorğu edilən informasiyanın həcmi iri olduğundan sorğunun icrası informasiya sahibinin üzərinə qoyulmuş ictimai vəzifələrin yerinə yetirilməsinə ciddi maneə yaradırsa və ya əsassız böyük məsrəflərə səbəb olursa, sorğunun icrasından imtina edilə bilər, http://www.e-qanun.az/framework/11142.

109 3-cü hədəf qrupu, № 1.

110 "Azərbaycanda fundamental hüquqların müdafiəsi ilə bağlı əsas narahatlıqlar və tövsiyələr", İnsan hüquqları sahəsində Aİ-Azərbaycan dialoqu üçün informasiya sənədi, "İnsan Hüquqları Naminə Beynəlxalq Tərəfdaşlıq" təşkilatı, oktyabr 2017-ci il, www.iphronline.org.

111 "Qrant haqqında" qanun, maddə 1.4, 17 aprel 1998-ci il.

məhduddur və praktikada həmin potensial iri şəhərlərdəki fəaliyyətlərlə əlaqədardır[112] və adətən bu fəaliyyətlər nisbətən azad olan sosial medianın istifadəsi vasitəsilə həyata keçirilir[113]. Bəzi siyasi partiyalar onlarla əlaqəli olan VCT-lər vasitəsilə maliyyə vəsaiti toplayır və beləliklə həm qanunu pozur, həm də dövlət orqanlarının nəzərində siyasi partiyalarla vətəndaş cəmiyyəti təşkilatları arasındakı sərhədi aradan qaldırmış olurlar.[114]

**5-Cİ SAHƏ ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:**

- Milli səviyyəli dövlət orqanlarının və yerli icra hakimiyyəti orqanlarının üzərinə ictimai şuralar yaratmaq, habelə şuranın fəaliyyətləri barədə ictimaiyyətə hesabat vermək vəzifəsi qoyulsun.
- Məlumat təqdim etməkdən imtina üçün texniki səbəblərin əsas gətirilməsi aradan qaldırılsın.
- Vahid onlayn resurs yaradılsın və qanun layihələrinin parlament (Milli Məclis) tərəfindən məcburi ictimai müzakirələrindən əlavə, milli səviyyəli bütün dövlət orqanlarının və bütün yerli icra hakimiyyəti orqanlarının üzərinə yardımçı normativ hüquqi aktların layihələrini ictimaiyyət və VCT-lər tərəfindən nəzərdən keçirilmək üçün dərc etmək vəzifəsi qoyulsun.
- "İnformasiya əldə etmək haqqında" qanunda dəyişiklik edilərək icra hakimiyyəti orqanlarının üzərinə məlumat verməkdən imtinanı əsaslandırmaq vəzifəsi qoyulsun, eləcə də əsassız imtinaya görə cəza İnzibati Xətalar Məcəlləsinə daxil edilsin.
- Xüsusən VCT-lərə təsir göstərən qərarlarla bağlı Nazirlər Kabinetində VCT-lərlə məsləhətləşmələrin aparılması təmin edilsin.

## 4.6 İfadə azadlığı

### STANDART 1: HƏR KƏS FİKİR VƏ İFADƏ AZADLIĞI HÜQUQUNA MALİKDİR

Azərbaycanda fikir və ifadə azadlığına konstitusiya ilə təminat verilir. Bununla belə, mümkün sanksiyalar səbəbindən jurnalistlərlə müqayisədə vətəndaş cəmiyyəti daha çox sərbəstliyə malikdir.

Fərdlərə və qruplara, o cümlədən VCT-lərə ayrı-seçkilik qoyulmadan fikir və ifadə azadlığı hüququna Azərbaycan Konstitusiyası ilə (47-ci maddə), eləcə də ölkənin BMT-yə, AŞ-yə və ATƏT-ə üzvlüyü vasitəsilə, habelə insan hüquqlarına dair əsas beynəlxalq və regional müqavilələrə qoşulması vasitəsilə götürdüyü öhdəliklərlə təminat verilir.[115] Həmçinin VCT-lərin və vətəndaşların məlumatları axtarmaq, əldə etmək və yaymaq hüququ Konstitusiyada

112 Belə ki, "Asiyada internetin istifadəsi və əhali barədə məlumatlar və Facebook statistikası" göstərir ki, Azərbaycanda Facebook-a çıxış səviyyəsi təxminən 20%-dir, 30 iyun 2018-ci il, https://www.internetworldstats.com/stats3.htm.

113 Azərbaycanda internet azadlığı 2018-ci ildə internet şəbəkəsində azadlığın 100 ballıq göstəricisi üzrə 60 bal həddində qiymətləndirilib, https://freedomhouse.org/report/freedom-net/2018/azerbaijan.

114 2-ci hədəf qrupu, № 1, 10, 5.

115 İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası (10-cu maddə), 25 dekabr 2001-ci ildə ratifikasiya olunub, https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf; İnsan hüquqları haqqında Avropa Konvensiyasının 15 saylı Protokolu, 2014-cü ildə ratifikasiya olunub, https://www.echr.coe.int/Documents/Protocol_15_ENG.pdf.

təsbit edilib (50-ci maddə) və bu sahəyə aid bir neçə qanunda daha təfsilatlı şəkildə əks olunub.[116] Ayrı-seçkiliyə, düşmənçiliyə və ya zorakılığa təhrikçiliyin təbliği qanunla açıq-aydın qadağan edilib və Cinayət Məcəlləsinin bir neçə maddələrinə (101, 214-2, 220.2 və 281) əsasən iki ildən on iki il müddətinədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.[117]

İstər yerli, istərsə də xarici müşahidəçilərin bildirdiyinə görə, praktikada media üçün ifadə azadlığı Azərbaycanda həssas məsələdir.[118] Belə ki, 2017-ci ildə AŞ-nin Parlament Assambleyası "ifadə azadlığını məhdudlaşdırmaq üçün cinayət qanunvericiliyinin əsassız tətbiqi" ilə bağlı narahatlığını ifadə edib.[119] Həmçinin medianı tənzimləyən əsas orqan olan Mətbuat Şurası[120] "reketçilik" deyilən fəaliyyətlərlə məşğul olan və ya jurnalistlərin peşə etikası qaydalarını pozan qəzetlərin "qara siyahısını" mütəmadi olaraq dərc edir. Qanuna əsasən reketçilik cinayət əməlidir. Bundan fərqli olaraq vətəndaş cəmiyyəti daha çox söz azadlığına malikdir və rəylərini ifadə etməkdə sərbəstdir. Belə ki, rəyi soruşulanların 86 faizi məlumat veriblər ki, son iki ildə açıq çıxışlarına görə hər hansı təzyiqə məruz qalmayıblar. VCT-lərin çoxu özünüsenzura tətbiq edir və "qırmızı xətti" keçmir, buna görə VCT-lərin çox qismi rəylərini ifadə etdiklərinə görə problemlərlə qarşılaşmırlar. [121]

Cinayət Məcəlləsində nifrət aşılayan çıxışlara görə sanksiyalar nəzərdə tutulub (283-cü maddə) və cəzalar 1.000 manatdan 2.000 manatadək (təxminən 500 avrodan 1.000 avroyadək) cərimədən tutmuş iki ilədək islah işlərinə və iki ildən dörd ilədək azadlıqdan məhrumetmə cəzasınadək geniş diapazonda dəyişir.

### STANDART 2: DÖVLƏT FİKİR VƏ İFADƏ AZADLIĞINA ŞƏRAİT YARADIR VƏ ONU QORUYUR.

Azərbaycanda VCT-lər öz fəaliyyətləri üçün Facebook, Instagram və YouTube-dan geniş istifadə edirlər. Eyni zamanda, VCT-lər korrupsiya barədə məlumat verənlərin qorunması haqqında maddənin hazırlanmasında fəal iştirak ediblər. Bununla belə, diffamasiya cinayət əməli olaraq qalmaqdadır.

Qanun internetin sərbəst istifadəsinə heç bir məhdudiyyət qoymur, hərçənd ki, 2017-ci ilin martında edilmiş dəyişikliklərlə təhqir və böhtan barəsindəki qanunvericilik onlayn və sosial mediaya da şamil olunur.[122] YouTube aktual sosial məsələlərin ictimaiyyət tərəfindən, o cümlədən VCT-lər tərəfindən müzakirə edilməsi üçün ən geniş istifadə edilən sosial media platformasıdır (2018-ci ilin oktyabrında aparılmış sorğuya əsasən bu platforma Azərbaycanda rəyi soruşulanların 97 faizi tərəfindən istifadə olunur), onun ardınca Instagram (84 faiz) və

116 "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" qanun, 10 iyun 1999-cu il, http://www.e-qanun.az/framework/31281; "İnformasiya əldə etmək haqqında" qanun, 30 sentyabr 2005-ci il, http://www.e-qanun.az/framework/11142.

117 Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 30 dekabr 1999-cu il, www.e-qanun.az.

118 3-cü hədəf qrupu, № 2.

119 Parlament Assambleyası, 2184 (2017) saylı qətnamə: "Azərbaycan demokratik institutların fəaliyyəti", 11 oktyabr 2017-ci ildə qəbul edilib, sayt: http://assembly.coe.int/nw/xml/XRef/XrefXML2HTML-en.asp?fileid=24188&lang=en.

120 Azərbaycan Mətbuat Şurası, https://www.presscouncil.az/az/.

121 Ətraflı müsahibə № 6.

122 "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında 16 mart 2017-ci il tarixli Prezident Fərmanı, http://e-qanun.az/framework/35125.

Facebook (81 faiz) gəlir.[123] Sosial şəbəkələr Azərbaycanda nisbətən sərbəst müzakirə platforması təşkil edir;[124] məsələn, internetdə hesab yaratmaq və ya materiallar yerləşdirmək üçün xüsusi icazə və ya konkret inzibati təlimatlara riayət etmək tələb olunmur. Bununla belə, etiraf etmək lazımdır ki, ara-sıra bəzi dövlət məmurları məhdudiyyətlərin tətbiq edilməsi təklifini irəli sürürlər,[125] məsələn, Facebook-da şərhlər yaza bilmək üçün milli eyniləşdirmə nömrəsi ilə qeydiyyatdan keçməyin tətbiqini təklif edirlər.[126] 2017-2018-ci illərdə sosial mediada qeydlərin edilməsinə görə formal təqib halları olmayıb. Müsbət tərəf ondan ibarətdir ki, bəzən Facebook-da sürətlə yayılan səs-küylü insidentlər dövlət orqanlarının diqqətini cəlb edir və hətta onları hərəkətə keçməyə sövq edir. Belə ki, 2018-ci ildə polis tərəfindən dəstəklənən qonşusu tərəfindən təqib edilən mehmanxana sahibinə qarşı iş[127] Mənzil Məcəlləsində dəyişiklik edilməsinə gətirib çıxardı (maddələr 13.1.4, 3.5 və 20.5), dəyişiklikdə açıq-aydın deyilir ki, özəl yaşayış yerlərində mehmanxana təşkil etmək üçün icazə tələb olunmur.[128]

2017-ci ilin martında Azərbaycan qanunvericiliyində onlayn resursların bloklanması üçün hüquqi əsas təşkil edən dəyişiklik edildi.[129] Prosessual normaları pozan ənənəvi və onlayn medianın bloklanması halları barədə məlumatlar vardır. Son dövrdə qanunvericilikdə edilmiş dəyişikliklərə əsasən,[130] Rabitə və Yüksək Texnologiyalar Nazirliyi saytın administrasiyasına təhqiramiz materialların səkkiz saat ərzində silinməsi barədə və silinməyəcəyi halda saytın bloklanacağı haqqında xəbərdarlıq etməlidir, amma praktikada saytlar dərhal bloklanır.[131]

Azərbaycan Konstitusiyasının 50-ci maddəsi 1998-ci ildə rəsmən ləğv edilmiş senzuranı qadağan edir.[132] Həmçinin "Kütləvi informasiya vasitələri haqqında" qanunun[133] 7-ci maddəsi hər hansı senzura aktını açıq-aydın qadağan edir, fövqəladə hallarda medianın fəaliyyətinin müvəqqəti qadağan olunduğu hallar istisna təşkil edir.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasını[134] ratifi-

---

123 Moskvada yerləşən "Kasperski Laboratoriyası" kibertəhlükəsizlik şirkəti tərəfindən aparılmış sorğu, oktyabr 2018-ci il, ikinci mənbə Günay Hacıyevanın materialı: "Hansı sosial şəbəkələr Azərbaycanda ən populyardır?", Caspian News, 22 dekabr 2018-ci il, https://caspiannews.com/news-detail/which-social-media-networks-are-most-popular-in-azerbaijan-2018-12-22-30/.

124 Azərbaycanda internet azadlığı 2018-ci ildə internet şəbəkəsində azadlığın 100 ballıq göstəricisi üzrə 60 bal həddində qiymətləndirilib, https://freedomhouse.org/report/freedom-net/2018/azerbaijan.

125 Hadı Rəcəbli: "Sosial şəbəkələr nəzarətə götürülməlidir", 17 iyul 2018-ci il, http://azpress.az/index.php?lang=az&sectionid=news&id=82065.

126 Nika Musəvi: "Azərbaycanda sosial media: etiraz hərəkatının beşiyi, pozğunluq yuvası, yoxsa təqib olunanların müdafiəçisi?", Jamnews, 17 oktyabr 2018-ci il, https://jam-news.net/social-media-in-azerbaijan-the-cradle-of-the-protest-movement-the-nest-of-debauchery-or-the-champion-of-the-oppressed/.

127 Bakıda qapadılmış mehmanxana ətrafında qalmaqal, Jamnews, 12 aprel 2017-ci il, https://jam-news.net/scandal-over-a-closed-hostel-in-baku/.

128 Mənzil Məcəlləsində dəyişikliklər, 25 aprel 2017-ci il, http://e-qanun.az/framework/35766.

129 "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında 16 mart 2017-ci il tarixli Prezident Fərmanı, http://e-qanun.az/framework/35125.

130 "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli Fərmanında dəyişikliklər edilməsi haqqında 16 mart 2017-ci il tarixli Prezident Fərmanı, http://e-qanun.az/framework/35125.

131 3-cü hədəf qrupu, № 1.

132 "Azərbaycan Respublikasında söz və məlumat azadlığının təmin edilməsində əlavə tədbirlər haqqında" Prezident Fərmanı, 6 avqust 1998-ci il, www.president.az.

133 "Kütləvi informasiya vasitələri haqqında" qanun, 7 dekabr 1999-cu il, http://www.e-qanun.az/framework/30.

134 Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası, 1 noyabr 2005-ci ildə ratifikasiya olunub, https://www.unodc.org/unodc/en/treaties/CAC/.

kasiya etməklə və "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda[135] dəyişiklik etməklə (maddələr 11-1 və 11-2) korrupsiya barədə məlumat verənləri müdafiə etmək öhdəliyini götürüb. Korrupsiya barədə məlumat verənlərin müdafiəsi haqqında maddə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya[136] yanında xüsusi işçi qrupu vasitəsilə vətəndaş cəmiyyətinin yaxından iştirakı ilə[137] hazırlanıb. Praktikada jurnalistlərə təzyiq halları böyük problem olaraq qalmaqdadır.[138] Bu səbəbdən 2019-cu il üçün "Mətbuat azadlığı indeksi"nə əsasən, Azərbaycan araşdırılan 180 ölkə arasında 166-cı yerdə qərarlaşıb.[139]

Diffamasiya cinayət əməli olaraq qalmaqdadır. Belə ki, Cinayət Məcəlləsinin 147, 148-1 və 323-cü maddələrində şəxsiyyətin şərəf və ləyaqətinə zərər yetirən məlumatların yayılmasına görə cinayət məsuliyyəti müəyyən edilir.[140] Diffamasiyanın dekriminallaşdırılmasının yubadılmasını rəsmilər çox zaman onunla izah edirlər ki,[141] jurnalistlər etik standartlara uyğun olaraq hərəkət etmirlər.[142] Praktikada 2017-2019-cu illərdə vətəndaş cəmiyyəti lüzumsuz təzyiqlərə məruz qalmayıb. Belə ki, rəyi soruşulan VCT-lərin 90 faizi məlumat veriblər ki, hər hansı hücuma və ya qanunsuz təzyiqə məruz qalmayıblar.

**XÜSUSİ TÖVSİYƏLƏR:**

- Onlayn media resurslarının bloklanmasının ciddi surətdə qanuna uyğun olaraq həyata keçirilməsi təmin edilsin.
- Qanunvericilikdə dəyişiklik edilərək diffamasiya dekriminallaşdırılsın və cinayət əməli deyil, inzibati xəta hesab olunsun.
- Praktikada senzura ləğv edilsin və tənqidi fikirlər səsləndirən jurnalistlərə və VCT fəallarına qarşı təzyiqlər dayandırılsın.

## 4.7 Şəxsi həyatın toxunulmazlığı hüququ

### STANDART 1. ŞƏXSİ HƏYATIN TOXUNULMAZLIĞI HÜQUQU AYRI-SEÇKİLİYƏ YOL VERİLMƏDƏN HAMI ÜÇÜN TƏMİN EDİLİR.

Azərbaycan Respublikasının qanunvericiliyi VCT-lər və VCT-lərin üzvləri də daxil olmaqla hər kəsin şəxsi həyatının toxunulmazlığı hüququnu təmin edir və bu sahədə VCT-lərə qarşı heç bir ayrı-seçkilik yoxdur. 2017-2018-ci illərdə VCT sektoru üzvlərinin şəxsi həyatının toxunulmazlığı hüququna qanunsuz müdaxilə halları olmayıb.

Şəxsi həyatın toxunulmazlığı hüququ üçün əsas təşkil edən müddəa Azərbaycan Respublikası

135 "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun, 14 oktyabr 2016-cı il tarixli dəyişikliklərlə, http://e-qanun.az/framework/34021.

136 Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, www.antikorrupsiya.gov.az.

137 Korrupsiya barədə məlumat verənlər haqqında konseptual sənəd, Beynəlxalq Şəffaflıq Təşkilatının Azərbaycan bölməsinin nəşri, aprel, 2015-ci il, http://transparency.az/alac/files/Paper_on_whistelblowers_en.pdf.

138 Azərbaycanın media mühitinin hərtərəfli təhlili, Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutu, iyun 2017-ci il, www.irfs.org, https://www.irfs.org/wp-content/uploads/2018/02/2017-A-COMPREHENSIVE-ANALYSIS-OF-AZERBAIJAN%E2%80%99S-MEDIA-LANDSCAPE.pdf.

139 "Mətbuat azadlığı indeksi – 2019", Sərhədsiz Reportyorlar Təşkilatı, https://rsf.org/en/ranking_table.

140 Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 30 dekabr 1999-cu il, www.e-qanun.az.

141 Ətraflı müsahibə № 4.

142 "Diffamasiya haqqında qanun əksər ölkələrdə qəbul olunub", Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərlinin "Səs" qəzetinə müsahibəsi, 10 yanvar 2018-ci il, http://sesqazeti.az/news/interview/656694.html.

Konstitusiyasının 32-ci maddəsində əks olunub. Bu maddəyə əsasən, hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa şəxsi həyata müdaxilə etmək qadağandır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Hər kəsin yazışma, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.[143]

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının 30 sentyabr 2005-ci il tarixli qanununa əsasən, şəxsi və ailə həyatına aid bir sıra müxtəlif informasiyalar, məsələn, siyasi baxışları, dini etiqadları əks etdirən məlumatlar, etnik mənşə və ya irqi mənsubiyyət barədə, sağlamlıq vəziyyəti, cinsi həyat haqqında, övladlığa götürmə barədə məlumatlar və s. şəxsi məlumat sayılır və bu informasiyaların əldə edilməsi məhdudlaşdırılır.

Şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyində inzibati sanksiya və cinayət məsuliyyəti kimi bir sıra hüquqi mexanizmlər tətbiq edilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 155-ci maddəsində yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozmağa görə cinayət məsuliyyəti nəzərdə tutulur. Cinayət Məcəlləsinin 156-cı maddəsində isə şəxsi həyatın toxunulmazlığını pozmağa görə (şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının qanunsuz toplanılması, habelə satılması və ya başqasına verilməsi) cinayət məsuliyyəti nəzərdə tutulur.

Bundan əlavə, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 23.1-ci maddəsinə əsasən, fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi həyatının sirrini və ya şəxsi toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin.

Bundan başqa, şəxsi həyatın toxunulmazlığı hüququnun pozulması nəticəsində fiziki və ya hüquqi şəxsə dəymiş hər hansı maddi və ya mənəvi ziyana görə kompensasiya hüququ Mülki Məcəlləsinin 21-ci maddəsinə uyğun olaraq həyata keçirilə bilər.

Eyni zamanda, «Fərdi məlumatlar haqqında» Azərbaycan Respublikasının 11 may 2010-cu il tarixli qanununda[144] fərdi məlumatların toplanmasının, emalının və qorunmasının qanunverici əsası və ümumi prinsipləri müəyyən edilir.

Azərbaycan Respublikası Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanı imzalayıb və 30 sentyabr 2009-cu il tarixli qanunla (№ 879-IIIQ) ratifikasiya edib.[145]

VCT üzvlərinin çoxu müxtəlif məsələlərin müdafiəsi və plüralizmin təşviqi üçün sosial mediadan istifadə edirlər, hərçənd ki, "prezidentin şərəf və ləyaqətini internet informasiya

143 Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsi.

144 http://www.e-qanun.az/framework/19675.

145 http://www.e-qanun.az/framework/18625.

ehtiyatında ləkləmə və ya alçaltma" 2016-cı ildən etibarən kriminallaşdırıldığına görə onlar daha ehtiyatlı yanaşma nümayiş etdirirlər.[146]

Cinayət Məcəlləsinin 148.1-ci maddəsində internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etməyə görə 1.000 manat (təxminən 500 avro) cərimədən başlayaraq iki ilədək azadlıqdan məhrumetməyə qədər cinayət məsuliyyəti nəzərdə tutulur. Bu maddədəki sanksiyalar 31 may 2017-ci il tarixli qanununla daha da sərtləşdirilib.[147]

Əvvəlki illərdən fərqli olaraq 2017-2018-ci illərdə VCT sektoru üzvlərinin şəxsi həyatının toxunulmazlığı hüququna qanunsuz müdaxilə halları olmayıb.

Hədəf qrupu iştirakçıları bildiriblər ki, yerli mobil operatorlar abonentlərin razılığı olmadan abonentlər barədə məlumatları üçüncü tərəflərə verirlər (məsələn, reklam və ya bildirişlərin göndərilməsi üçün).[148]

### STANDART 2. DÖVLƏT VCT-LƏRİN VƏ ONLARLA ƏLAQƏLİ ŞƏXSLƏRİN HÜQUQLARINI QORUYUR.

2017-2018-ci illərdə dövlət tərəfindən VCT-lərin və VCT nümayəndələrinin şəxsi məlumatlarının qorunması hüququnu pozan müdaxilə, eləcə də VCT-lərin ofislərinə müdaxilə halları (istər hüquqi, istərsə də praktiki) aşkar edilməyib.

Azərbaycan qanunvericiliyi VCT-lərdən tələb edir ki, sədr də daxil olmaqla idarə heyətinin yeni üzvləri barədə idarə heyətinin seçilməsindən sonra 40 gün ərzində Ədliyyə Nazirliyinə (ƏN) məlumat versinlər. VCT-lərin üzvlərinin və VCT-lərlə əlaqəli şəxslərin fərdi məlumatlarının VCT-lər tərəfindən ƏN-ə təqdim edilməsi tələb olunmur. VCT-lər tərəfindən Vergilər Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Maliyyə Nazirliyinə (MN) və Dövlət Statistika Komitəsinə təqdim edilən hesabatlar əsasən maliyyə məlumatlarına, vergilərə və sosial ödəmələrə aiddir. Bununla belə, VCT-lər il ərzində onlara ianə verən şəxslərin pasport məlumatlarını MN-ə təqdim etməyə borcludurlar.

Qanuna əsasən, VCT-lər də daxil olmaqla bütün hüquqi şəxslər dövlət orqanları tərəfindən aparılacaq yoxlamalar barədə qabaqcadan məlumatlandırılmalıdırlar. Belə yoxlamalar zamanı dövlət orqanı (ƏN, Vergilər Nazirliyi və s.) VCT-nin müvafiq sənədlərini yoxlayır və yoxlamanın nəticələri barədə qərar qəbul edir, VCT həmin qərardan məhkəməyə şikayət edə bilər. Məsələn, Vergi Məcəlləsinin 38.1-ci maddəsinə əsasən, elektron yoxlamalar da daxil olmaqla səyyar vergi yoxlamaları (növbəti (planlaşdırılan) və ya növbədənkənar yoxlamalar) vergi orqanının qərarı əsasında həyata keçirilir və həmin orqan bu barədə vergi ödəyicisinə ən azı 15 gün qabaqcadan yazılı bildiriş göndərir. Araşdırma zamanı dövlət orqanlarının şəxsi məlumatlara çıxışı qanunla məhdudlaşdırılır. Məsələn, Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 199.2-ci maddəsinə əsasən, prosessual hərəkətlərin gedişində hər hansı şəxsin şəxsi həyatına aid məlumatların, habelə onun gizli saxlanılmasını lazım bildiyi digər şəxsi xarakterli məlumatların lüzumsuz toplanılmasına, yayılmasına və onlardan istifadə edilməsinə yol verilmir. Müstəntiqin, prokurorun və ya məhkəmənin tələbi ilə istintaq və

146 VCT Dayanıqlığı İndeksi – 2017, Azərbaycan.

147 Cinayət Məcəlləsinin 148-1-ci maddəsi.

148 2-ci hədəf qrupu, № 1.

məhkəmə hərəkətlərinin iştirakçıları bu məlumatların yayılmamasını öhdələrinə götürür və onlardan bu barədə yazılı iltizam alınır.[149] Cinayət təqibi gedişində heç kəsin şəxsi (özünün və ailəsinin) həyatın sirrinin, yazışma, telefon danışıqları, poçt-teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatların və başqa məlumatların sirrinin saxlanılması hüququ Cinayət Prosessual Məcəlləsində nəzərdə tutulmuş hallardan başqa məhdudlaşdırıla bilməz. Poçt, teleqraf və digər göndərişlərin üzərinə həbs qoyma, onu yoxlama və götürmə, telefon və digər qurğularla aparılan danışıqların və başqa rabitə və texniki kanallar vasitəsi ilə ötürülən məlumatların və başqa məlumatların tutulması Cinayət Prosessual Məcəlləsi ilə müəyyən edilmiş hallarda, bir qayda olaraq, məhkəmənin qərarı ilə həyata keçirilə bilər.[150]

**7-Cİ SAHƏ ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:**

- Azərbaycan Avropa Şurasının Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyasının Əlavə Protokolunu imzalamalıdır, nəzarət orqanları və transsərhəd məlumat axını ilə əlaqədar olan həmin Protokol fərdi məlumatların monitorinqi və nəzarəti üçün müstəqil dövlət qurumunun yaradılmasını tələb edir.
- Sosial şəbəkələrdə saxta profillərdən istifadə edilməsi dekriminallaşdırılsın və hər hansı sanksiyaların mütənasibliyi təmin edilsin.

## 4.8 Dövlətin müdafiəni təmin etmək vəzifəsi

### STANDART 1. DÖVLƏT VCT-LƏRİ VƏ VCT-LƏRLƏ ƏLAQƏLİ ŞƏXSLƏRİ MÜDAXİLƏ VƏ HÜCUMLARDAN QORUYUR.

VCT-lər və onların üzvləri də daxil olmaqla hər kəs məhkəmələrdə öz maraqlarını təmsil etmək və hüquqlarını müdafiə etmək hüququna malikdir (Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi). Hesabat dövründə dövlət məmurları tərəfindən VCT-lər əleyhinə hər hansı neqativ media kampaniyası və ya ictimai bəyanatlar olmayıb.

Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və onların vəzifəli şəxslərinin hərəkətlərindən və ya hərəkətsizliyindən inzibati qaydada və ya məhkəmələrə şikayət edə bilər.

Digər fiziki şəxslər kimi VCT üzvləri də nifrət aşılayan çıxışlara qarşı müdafiə edilirlər, belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində böhtan və təhqirə görə cinayət məsuliyyəti nəzərdə tutulub.[151]

“Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli fərmanı ilə təsdiqlənmiş nümunəvi əsasnamədə apellyasiya şuraları dövlət qurumlarının qərarlarından və hərəkətlərindən fiziki və hüquqi şəxslərin (o cümlədən VCT-

---

149 Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 199.2-ci maddəsi.

150 Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 16-cı maddəsi.

151 Cinayət Məcəlləsinin 147 və 148-ci maddələri.

lərin) verdikləri şikayətlərə baxan və ödənişsiz əsaslarla fəaliyyət göstərən kollegial orqan kimi müəyyən edilir. Beləliklə, hüquqi şəxslər və VCT-lər üçün alternativ şikayət mexanizmi yaradılıb. Apellyasiya şuralarının qərarlarına məhkəmə tərəfindən yenidən baxıla bilər.

Ümumiyyətlə, məhkəmə qərarlarından şikayət verilməsi üçün müddətlər ağlabatandır və qərarın tərəflərə təqdim edildiyi andan 20 gündən iki ayadək dəyişir və qərardan şikayət verildiyi təqdirdə qərar qüvvəyə minmir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 77.2-ci maddəsinə (sübut etmə vəzifəsi) əsasən,[152] dövlət orqanlarının aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda həmin aktların qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür.

Azərbaycan qanunvericiliyi qeyri-formal birliklərin yaradılmasına və mövcud olmasına icazə versə də, onlar hüquqi şəxs olmadıqlarına görə müəyyən hüquqlardan istifadə etmək hüququna malik deyillər. Məsələn, onlar məhkəmədə iddiaçı ola, öz mülkiyyətinə malik ola, bank hesabı aça və ya vergi ödəyicisinin eyniləşdirmə nömrəsini ala bilməzlər. VCT Ədliyyə Nazirliyində qeydiyyatdan keçməyibsə, dövlət həmin qeydiyyatsız VCT-nin ad hüququnu qoruya bilməz.

Mənəvi ziyana və əmlaka dəymiş zərərə görə hər kəs üçün kompensasiya Mülki Məcəllə ilə və müvafiq qanunvericiliklə təmin edilir.

Onlayn sorğunun respondentlərində (90 faiz) VCT-lərə və onların üzvlərinə qarşı hər hansı təqib və ya hücum halları barədə məlumat yoxdur. Onlayn sorğuda iştirak etmiş VCT-lərə qarşı dövlət tərəfindən təzyiq və ya onların daxili işlərinə dövlətin qanunsuz müdaxiləsi halları qeydə alınmayıb.

### STANDART 2. EKSTREMİZM, TERRORİZM, ÇİRKLİ PULLARIN YUYULMASI VƏ YA KORRUPSİYA İLƏ MÜBARİZƏDƏ İSTİFADƏ EDİLƏN TƏDBİRLƏR KONKRET HƏDƏFLİ VƏ MÜTƏNASİBDİR, RİSK ƏSASLI YANAŞMAYA VƏ BİRLƏŞMƏK, TOPLAŞMAQ VƏ İFADƏ AZADLIĞI İLƏ ƏLAQƏDAR OLAN İNSAN HÜQUQLARI STANDARTLARINA UYĞUNDUR.

Ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiya ilə mübarizə ilə əlaqədar qanunvericilik tələbləri VCT-lər üçün ağır yükdür və bir çox təşkilatlar onları yerinə yetirmək üçün resurslara malik deyillər. Bu səbəbdən Azərbaycanda VCT-lərə münasibətdə bu qanunvericilik, demək olar ki, icra edilmir.

Bu sahədə əsas qanun 2009-cu ildə qəbul edilmiş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanundur. Bu qanun: a) Azərbaycanda olan VCT-ləri, eləcə də xarici VCT-lərin filial və nümayəndəliklərini "monitorinq iştirakçıları" kimi müəyyən edir (maddə 4.1.9); və b) onların üzərinə "cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı daxili nəzarət sistemini hazırlamaq və həyata keçirmək" vəzifəsi qoyur (5 və 12-ci maddələr). Adı çəkilən qanun həmçinin VCT-lərdən tələb edir ki, bu sahəyə görə məsul şəxs və daxili auditor təyin etsinlər, müştərilərin eyniləşdirilməsi və verifikasiyasını həyata keçirsinlər, şübhəli əməliyyatlar barədə Maliyyə Monitorinqi Xidmətinə məlumatlar təqdim etsinlər və lazımi təlimlər keçir-

152 http://www.e-qanun.az/code/9.

sinlər. Qeyd edilən tələblər VCT-lər üçün ağır yükdür və bir çox təşkilatların maliyyə imkanları xaricindədir. Hazırda bu qanun, demək olar ki, icra edilmir və VCT-lərin çoxu ondan xəbərsizdirlər.[153]

Bundan başqa, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 598.2-ci maddəsi "cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulmasına görə" konkret olaraq Azərbaycan Respublikasında olan VCT-lər və xarici VCT-lərin filial və ya nümayəndəlikləri, dini təşkilatlar və vəzifəli şəxslər üçün 800 manatdan 15.000 manatadək (təxminən 400 avrodan 7.900 avroyadək) məbləğdə cərimə müəyyən edir. Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) tövsiyələrində vurğulanır ki, «bu məqsədlə görülən tədbirlərin xeyriyyəçilik fəaliyyətinin təqsirsiz və legitim benefisiarları üçün hər hansı mənfi nəticələr doğurmasına mümkün qədər yol verilməməlidir».[154] Bundan başqa, hazırda Azərbaycan qanunvericiliyində VCT-lər tərəfindən "daxili nəzarət sistemlərinin" yaradılmasına dair hər hansı konkret rəhbər prinsiplər yoxdur.[155] Ədliyyə Nazirliyi çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə necə riayət etmək barədə VCT-lər üçün rəhbər prinsiplərin hazırlanmasından ötrü VCT-lərə dair qanunvericilik üzrə müstəqil mütəxəssislərdən təşkil olunmuş işçi qrupu yaradıb.

**8-Cİ SAHƏ ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:**

- VCT-lərə qarşı cəzalara yenidən baxılsın, onlar azaldılsın və hüquq pozuntusuna mütənasib qaydada tətbiq edilsin.
- VCT-lərin ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiyaya qarşı mübarizə ilə əlaqədar öhdəliklərinə yenidən baxılsın və həmin öhdəliklər VCT-lərə risk əsaslı yanaşmaya uyğun olaraq və müəyyən yuxarı hədd müəyyənləşdirilməklə tətbiq edilsin (məsələn, illik dövriyyəsi 50.000 manatdan (təxminən 26.400 avrodan) artıq olan VCT-lərə şamil olunsun).

## 4.9 Dövlətin dəstəyi

### STANDART 1. VCT-LƏRƏ DÖVLƏTİN MALİYYƏ VƏ NATURAL FORMADA DƏSTƏYİ ÜÇÜN BİR SIRA MÜXTƏLİF VƏ SƏMƏRƏLİ MEXANİZMLƏR MÖVCUDDUR.

Azərbaycanda bir sıra ictimai maliyyələşdirmə mexanizmləri (subsidiyalar, dövlət maliyyələşdirməsi, sosial xidmətlər və s.) mövcuddur. Ən geniş yayılmış forma qrantlardır və hər bir maliyyələşdiricinin özünün qrantlara dair qaydaları vardır. Onların bəziləri digərlərinə nisbətən daha şəffaf və VCT-lər üçün daha əlçatandır.

"Dövlət satınalmaları haqqında" qanuna[156] əsasən, dövlət VCT-lər də daxil olmaqla istənilən təşkilatdan malları və xidmətləri satın ala bilər. Bununla belə, Azərbaycan qanunvericil-

153 3-cü hədəf qrupu, bütün iştirakçılar.

154 Bax; http://www.fatf-gafi.org/media/fatf/documents/recommendations/pdfs/FATF_Recommendations.pdf, səh. 95.

155 Azərbaycanda terrorizmə və çirkli pulların yuyulmasına qarşı mübarizədə QHT-lərin öhdəliklərinin icmalı, 17 may 2016-cı il, ICNL.

156 "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunu, 27 dekabr 2001-ci il, № 245-IIQ (bundan sonra "Dövlət satınalmaları haqqında qanun" adlandırılacaq).

iyində dövlət satınalmalarında iştirak üçün həddən artıq ağır maliyyə şərtləri müəyyən edilir ki, bu da dövlət kontraktları üçün tenderlərdə VCT-lərin iştirakını mahiyyət etibarilə mümkünsüz edir. Konkret olaraq, "Dövlət satınalmaları haqqında" qanun hüquqi və ya fiziki şəxsin satınalma tenderlərində iştirak edə bilməsi üçün həm iştirak haqqını, həm də tender xərclərini ödəməsini tələb edir. Tenderdə iştirak haqqının ümumi məbləği tender predmetinin ehtimal olunan qiymətinin 0,5 faizindən və tender xərclərinin 1,5 mislindən çox olmamaq şərti ilə satınalan təşkilat tərəfindən müəyyənləşdirilir.[157] Praktikada hətta iri VCT-lər belə hazırkı qanunun tələb etdiyi iştirak haqqını ödəmək iqtidarında deyillər.

Bundan başqa, "Qrant haqqında" qanuna əsasən, dövlət VCT-lərə qrantlar verə bilər.[158] QHT-lərə Dövlət Dəstəyi Şurası milli səviyyədə VCT-lərə dövlət qrantlarının verilməsinin əsas mexanizmidir. QHT-lərə Dövlət Dəstəyi Şurası insan hüquqları, qaçqınların hüquqları, məcburi köçkünlərə, uşaqlara, qadınlara, gənclərə yardım, səhiyyə, elm, təhsil mədəniyyət, insan alverinə, korrupsiyaya, terrorizmə qarşı mübarizə, VCT-lər haqqında qanunvericilik və Azərbaycanın dünya birliyinə inteqrasiyası kimi sahələrdə VCT-lərin fəaliyyətlərinə dəstək göstərir. 2007-ci ildə yaradıldığı vaxtdan bəri QHT-lərə Dövlət Dəstəyi Şurası dəyəri 20.000.000 ABŞ dollarından artıq olan 2.500-dən çox layihəyə dəstək göstərib. İldə bir neçə dəfə qrant müsabiqələri keçirilir. 2017-ci ildə iki qrant müsabiqəsində ümumi dəyəri 3.049.900 manat (təxminən 1,6 milyon avro) olan 487 VCT layihəsinə maliyyə dəstəyi göstərilib.[159] 2018-ci ildə isə iki qrant müsabiqəsində ümumi dəyəri 3.999.105 manat (təxminən 2,1 milyon avro) olan 576 VCT layihəsinə maliyyə dəstəyi göstərilib.[160] Hər layihəyə düşən qrantın orta məbləği 3.000-10.000 manatdır (təxminən 1.500-5.000 avro). Bu qrantlar nadir hallarda institusional dəstək üçün verilir.

Dövlət qurumu olaraq QHT-lərə Dövlət Dəstəyi Şurası VCT-lərlə hökumət arasında körpü yaradılmasında mühüm rol oynayır və çox zaman VCT-lərin problemlərinin hökumətə çatdırılmasında istifadə edilir. Eyni zamanda, QHT-lərə Dövlət Dəstəyi Şurasında müsabiqədən keçməyən layihə təklifləri ilə məşğul olan daxili Apellyasiya Komissiyası vardır.

Ümumi hesabatlılıq tələbləri (maliyyə hesabatları, vergi hesabatları və s.), donor tərəfindən layihənin monitorinqi və bütün hüquqi və fiziki şəxslər üçün qanunvericilikdə müəyyən edilmiş digər öhdəliklər istisna olmaqla, VCT-lərin dövlətdən aldıqları maliyyə vəsaitləri, bir qayda olaraq, əlavə nəzarətə və ya yoxlamalara məruz qalmır.

Qrantlarla müqayisədə subsidiyalar Azərbaycanda VCT-lər üçün dövlət maliyyələşdirməsinin daha az populyar olan mexanizmdir. Praktikada yalnız az sayda VCT-lər dövlət büdcəsindən birbaşa subsidiyalar alırlar (məsələn, Bəstəkarlar İttifaqı, Yazıçılar İttifaqı və ya Rəssamlar İttifaqı).

Dövlət üçün sosial xidmətlərin göstərilməsi VCT-lər üçün yerli maliyyələşdirmənin digər bir mənbəyidir. «Sosial xidmət haqqında» qanun dövlət orqanlarının VCT-lərdən sosial xidmətləri satın almaq üçün dövlət büdcəsi vəsaitlərindən istifadə etmələrinə icazə verir.[161]

157 "Dövlət satınalmaları haqqında" qanunun 29.1-ci maddəsi.

158 "Qrant haqqında" qanunun 2-ci maddəsi.

159 QHT-lərə Dövlət Dəstəyi Şurasının 22 aprel 2019-cu il tarixli məktubu.

160 Eyni mənbə.

161 "Sosial xidmət haqqında" qanunun 26-cı maddəsi.

30 dekabr 2012-ci ildə qəbul etdiyi iki qərarla Nazirlər Kabineti aşağıdakıları təsdiq edib: 1) "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası";[162] və 2) «Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi **şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası".**[163] "Sosial xidmət sahəsində dövlət sifarişlərinin verilməsi Qaydası"na "Sosial xidmət sifarişi üzrə müqavilənin nümunəsi" əlavə olunub. Bu "Qayda" sosial sifarişlərin büdcədən maliyyələşdirilməsi, tender komissiyaları üçün prosedurlar, həmin komissiyalarda üzvlük, VCT-lərin tenderlərdə iştirakı və prosesə görə məsuliyyət daşıyanların və prosesə nəzarət edənlərin təyin edilməsi kimi məsələləri əhatə edir. Sosial müqavilələrin dəyəri adətən hər layihə üçün 20.000 manatdan (təxminən 10.500 avrodan) aşağıdır və həssas qruplara qulluq göstərən mərkəzlərin fəaliyyətini, onlara müxtəlif sosial xidmətlərin göstərilməsini və sairəni əhatə edir.

VCT-lərə qrantlar verən digər dövlət orqanları sırasına bunlar daxildir: Prezident yanında Gənclər Fondu, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi və s.

Onlayn sorğu iştirakçılarının çoxu (91 faiz) qeyd ediblər ki, dövlətdən natural formada yardım almaq üçün müraciət etməyiblər. Dövlətdən natural formada yardım almaq üçün müraciət etmiş iki nəfər müraciət prosedurunu asan, şəffaf və aydın hesab edib. Praktikada az sayda VCT-lər (məsələn, idman assosiasiyaları, əlillərlə işləyən təşkilatlar və s.) ödənişsiz ofis yeri alırlar.

### STANDART 2. VCT-LƏRƏ DÖVLƏT DƏSTƏYİ AYDIN VƏ OBYEKTİV MEYARLARLA TƏNZİMLƏNİR VƏ ŞƏFFAF VƏ RƏQABƏTLİ PROSEDUR VASİTƏSİLƏ AYRILIR.

Şəffaf qrant müsabiqəsi prosedurları az sayda maliyyələşdirmə mexanizmlərində mövcuddur. VCT-lərin narahatlıqları prosedur aspektləri ilə deyil, qrantların ümumi sayı və məbləği ilə əlaqədardır.

Hədəf qrupu iştirakçıları bildiriblər ki, QHT-lərə Dəstək Şurası və Prezident yanında Gənclər Fondu kimi az sayda dövlət qurumları istisna olmaqla dövlət orqanlarının maliyyələşdirmə mexanizmlərinin çoxu şəffaf deyil.[164] Hədəf qruplarının iştirakçıları həmçinin ayrılan qrantların məbləğinin azlığından şikayət ediblər, belə ki, onlar VCT-lərin vəzifələrini yerinə yetirmələri və məqsədlərinə nail olmaları üçün yetərli deyil.

QHT-lərə Dəstək Şurasının qrant müsabiqəsi adətən layihə təkliflərinin təqdim ediləcəyi tarixdən bir ay əvvəl elan olunur və ətraflı müsabiqə qaydalarını özündə əks etdirir. Ərizələr onlayn qaydada təqdim edilməlidir. QHT-lərə Dəstək Şurasına təqdim edilən layihələrin qiymətləndirilməsi 3 mərhələdə aparılır:

- Layihə təkliflərinin ilkin seleksiyası. Şuranın Katibliyi təklif olunan layihənin müsabiqə qaydalarına uyğunluğunu yoxlayır.

---

162 "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 328 nömrəli qərarı (30 dekabr 2012-ci il), http://e-qanun.az/alpidata/framework/data/25/f_25059.htm.

163 "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası"nın təsdiq edilməsi barədə Nazirlər Kabinetinin 330 nömrəli qərarı (30 dekabr 2012-ci il), http://www.e-qanun.az/framework/25063.

164 2-ci hədəf qrupu, № 3.

- Layihə təkliflərinin cəlb olunan ekspertlər tərəfindən qiymətləndirilməsi. Ekspertlər layihələri QHT-lərə Dəstək Şurası tərəfindən təsdiqlənmiş qiymətləndirmə vərəqəsinə uyğun olaraq ballara əsaslanan sistem üzrə qiymətləndirirlər. Hər bir layihə QHT-lərə Dəstək Şurası tərəfindən kodlaşdırılır və müstəqil ekspertlər tərəfindən onlayn qaydada qiymətləndirilir.
- Layihə təkliflərinə dair QHT-lərə Dəstək Şurasının yekun qərarı. Şuranın 11 üzvü hər bir layihə təklifini fərdi qaydada müzakirə edir və ekspertlərin rəyləri əsasında qərar çıxarır. Sonra Katiblik qalib təşkilatlar barədə məlumatı öz internet səhifəsində yerləşdirir və onlara poçtla fərdi qaydada bildiriş göndərir. Maliyyələşdirici orqanların heç də hamısı bunu etmirlər.

Layihə təklifləri keçməyən VCT-lər qərarın qəbul edildiyi tarixdən 10 gün ərzində QHT-lərə Dəstək Şurasına apellyasiya verə bilərlər. Apellyasiya verən VCT-lər öz layihə təklifləri ilə bağlı ekspert rəyləri ilə tanış olmaları üçün Şuraya dəvət edilirlər. Müsabiqənin nəticələri internetdə yerləşdirilir. Praktikada bu apellyasiya mexanizmindən çox az sayda VCT-lər istifadə edirlər. Məsələn, 2017-ci ildə 27 VCT QHT-lərə Dəstək Şurasının son müsabiqədə qrant verilməsi barədə qərarları ilə bağlı apellyasiya verib. Bu apellyasiyalardan doqquzu əsaslı sayılıb və onları təqdim edənlərin səkkizinə qrant verilib.[165]

Ümumiyyətlə, QHT-lərə Dəstək Şurasında qrantlar üçün müsabiqələrin keçirilməsi prosedurları qərəzsiz və şəffaf olmuşdur.[166] Bu maliyyə mənbəyində maraqlı olan VCT-lər QHT-lərə Dəstək Şurasının işini yaxından monitorinq edirlər.

21 oktyabr 2015-ci ildə Azərbaycan Respublikasının prezidenti "Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə razılaşdırılması Qaydası"nı təsdiq etdi,[167] bu "Qayda"nın tələbinə görə, dövlət orqanları öz qrant müsabiqələrinin mövzuları barədə, habelə müsabiqə elanlarına cavab olaraq VCT-lər tərəfindən təqdim edilən layihə təklifləri haqqında QHT-lərə Dəstək Şurasının rəyini öyrənməlidirlər. 2018-ci ildə bu siyahıya daha üç dövlət orqanı əlavə olundu və indi ümumilikdə 12 dövlət orqanı VCT-lərə qrant verə bilər. Bu orqanların hər biri öz monitorinq və qiymətləndirmə mexanizmini işləyib hazırlayır.

Onlayn sorğunun respondentləri hesab edirlər ki, dövlət maliyyələşdirməsi üçün müraciət proseduru asan, şəffaf və aydındır və müraciətlərin nəticələri vaxtında dərc olunur.

### STANDART 3. VCT-LƏR ƏLVERİŞLİ VERGİ MÜHİTİNDƏN BƏHRƏLƏNİRLƏR.

Baxmayaraq ki, qrantlar, ianələr və üzvlük haqları vergidən azaddır, VCT-lər üçün vergi mühitini "əlverişli" adlandırmaq olmaz. Problemlər xarici maliyyələşdirmənin ƏN-də qeydiyyata alınması ilə əlaqədardır.

Azərbaycanda VCT-lər əlverişsiz vergi mühitindən şikayətlənirlər, çünki onlara yüksək dərəcələrlə müxtəlif vergilər tətbiq edilir, məsələn, mənfəət vergisi (20 faiz), işçilərin gəlir vergisi (14 faiz), əmlak vergisi, torpaq vergisi, əlavə dəyər vergisi (ƏDV) və s. Son dövrdə Vergi

165 Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatları üçün hüquqi bazanın qiymətləndirilməsi, 4-cü nəşr. iyul 2017-ci il, ICNL.

166 ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) VCT Dayanıqlığı İndeksi, Azərbaycan, 2017-ci il.

167 Prezidentin 652 nömrəli fərmanı, 21 oktyabr 2015-ci il, http://www.e-qanun.az/framework/31055.

Məcəlləsində edilmiş dəyişikliklərə əsasən, VCT dövlət tərəfindən maliyyələşdirilmədiyi təqdirdə 8.000 manatadək (təxminən 4.200 avro) əmək haqları 7 il ərzində gəlir vergisindən azaddır.

Qrantlar gəlir vergisindən azaddır. Bundan əlavə, qeyri-kommersiya təşkilatlarının aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr gəlir vergisindən azaddır.[168] Xeyriyyə təşkilatlarının topladıqları ianələrdən vergi ödəmələri tələb olunmur. Lakin xeyriyyə təşkilatı statusu əldə etmək üçün prosedur yoxdur, buna görə də reallıqda təşkilatlar bu vergi güzəştindən yararlanmağa cəhd göstərə bilmirlər.

Vergi Məcəlləsinə əsasən, xeyriyyə təşkilatları da daxil olmaqla VCT-lərin sahibkarlıq fəaliyyətindən əldə etdikləri gəlirlərdən vergi tutulur, kənd təsərrüfatı məhsulları istehsal edən sosial müəssisələr istisna təşkil edir, onlar 2018-ci ildən 5 il müddətinə gəlir vergisindən azad ediliblər.

QHT-lər haqqında qanun VCT-lərin sahibkarlıq fəaliyyətinin gəlir və xərclərinin ayrıca mühasibatlığını aparmalarını tələb edir. Bundan başqa, VCT-lərin qrant müqavilələrini, ianələri və maraqlı xarici tərəflərin xidmət müqavilələrini qeydiyyata aldırmaları tələb olunur.

### STANDART 4. KOMMERSİYA MÜƏSSİSƏLƏRİ VƏ FİZİKİ ŞƏXSLƏR VCT-LƏRƏ VERDİKLƏRİ İANƏLƏRƏ GÖRƏ VERGİ İMTİYAZLARINDAN BƏHRƏLƏNİRLƏR.

VCT-yə ianə vermək istəyən kommersiya müəssisələri və fiziki şəxslər üçün vergi güzəştləri sistemi Azərbaycanda yetərincə inkişaf etməyib. Bununla belə, son dövrdə qanunverici orqan gələcəkdə bu problemi həll edə biləcək müddəanı qanunvericiliyə daxil edib.

Vergi Məcəlləsinin yeni 106.1.18-ci maddəsinə[169] əsasən, hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi 2019-cu il 1 yanvar tarixdən 10 il müddətinə vergidən azaddır. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir və onun tətbiqi üçün mexanizm hələ Azərbaycan Nazirlər Kabineti tərəfindən qəbul edilməyib. VCT-lərə ianə verən kommersiya müəssisələri və fiziki şəxslər üçün digər vergi güzəştləri yoxdur.

Onlayn sorğunun bütün iştirakçıları bildiriblər ki, vergi güzəştləri artırılarsa, onların VCT-lərinə daha çox insanlar ianə verərlər.

### STANDART 5. QANUNVERİCİLİK VƏ SİYASƏT KÖNÜLLÜLƏRİN FƏALİYYƏTLƏRİNİ STİMULLAŞDIRIR.

Azərbaycanda qanunvericilik könüllülərin fəaliyyətlərini stimullaşdırır, hərçənd ki, əcnəbi könüllünün ölkədə yaşayış icazəsi almasında bəzi çətinliklər vardır və hətta kiçik yardım üçün də hər bir könüllü ilə yazılı müqavilə imzalanmalıdır.

“Könüllü fəaliyyəti haqqında” 9 iyun 2009-cu il tarixli qanun könüllülərin hüquqi statusuna aydınlıq gətirir və onların, xüsusən də əcnəbi və ya vətəndaşlığı olmayan könüllülərin istər

---

168 Vergi Məcəlləsinin 106.1.2-ci maddəsi.

169 Dəyişiklik 30 noyabr 2018-ci ildə qəbul edilib və 1 yanvar 2019-cu ildən qüvvəyə minib.

onları cəlb edən təşkilatlarla, istərsə də dövlətlə münasibətlərində hüquqlarını qorumalarını asanlaşdırır. “Könüllü fəaliyyəti haqqında” qanuna əsasən, könüllülər dövlət orqanları, dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar, yerli özünüidarə orqanları və QHT-lərdə işləri (xidmətləri) yerinə yetirə bilərlər. Könüllü fəaliyyət aşağıdakı sahələr üzrə həyata keçirilə bilər: əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi; hüquqi və mədəni maarifləndirmə; uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı; idmanın inkişafı; cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan və məişət zorakılığına məruz qalan şəxslərə kömək edilməsi; və Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər fəaliyyət sahələri.

Könüllü ilə onu cəlb etmiş təşkilat arasında münasibətlər yazılı müqavilə ilə tənzimlənir.[170] Hətta könüllünün xırda və qısamüddətli işi yerinə yetirdiyi hallar üçün belə, qanun müqavilənin şifahi formada olmasına icazə vermir. İnzibati Xətalar Məcəlləsinin 579-cu maddəsi hüquqi şəxslərin konüllü ilə müqavilə imzalamadan konüllünün yardımından istifadə etməsinə görə 2.500 manatdan 3.000 manatadək (təxminən 1.300 avrodan 1.600 avroyadək) cərimə müəyyən edir.

Qanuna əsasən həm könüllünün, həm də onu cəlb edən təşkilatın müəyyən hüquq və vəzifələri vardır. Məsələn, könüllülər, digər hüquqlarla yanaşı, həyat və sağlamlığının mühafizəsini təmin edən əmək şəraitinin yaradılmasını tələb etmək; könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək; gündəlik nəqliyyat xərclərinin ödənilməsini tələb etmək; könüllü fəaliyyəti həyata keçirərkən həyatına və sağlamlığına dəymiş zərərin əvəzini almaq; və öz əmlakından istifadəyə görə kompensasiya almaq hüququna malikdirlər. Onlayn sorğuya əsasən, VCT fəaliyyətlərinə könüllülərin cəlb edilməsində heç bir maneə yoxdur. Onlayn sorğu iştirakçılarının 97 faizi qeyd ediblər ki, könüllülərin yardımından istifadə edirlər.

Qanunvericilik VCT-lərin əcnəbi könüllülərdən istifadə etməsinə icazə verir, lakin Miqrasiya Məcəlləsində sadəcə könüllü fəaliyyət barədə müqavilənin olması əsasında ölkədə yaşayış icazəsi verilməsi nəzərdə tutulmayıb.

Hazırda Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (ASAN) və bəzi digər dövlət qurumları gündəlik fəaliyyətlərində könüllülərdən istifadə edirlər.

### 9-CU SAHƏ ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:

- Donor olan fiziki və hüquqi şəxslər üçün səmərəli vergi güzəştləri müəyyən edilsin.
- Müddəti bir gündən artıq olmayan ayrıca işlər üçün könüllü ilə yazılı müqavilə bağlamaq tələbi ləğv edilsin.
- VCT-lərə verilən qrantların miqdarı artırılsın ki, onlar institusional potensiallarını qura bilsinlər.
- Kommersiya şirkətlərinin gəlir vergisinin 10%-inin VCT-lərə ödənilməsi üçün mexanizm işlənib hazırlansın.
- VCT-lər tərəfindən təşkil edilən tədbirlərin keçirilməsi üçün dövlət mülkiyyətində olan obyektlərin VCT-lərə ödənişsiz və ya simvolik icarə haqqı müqabilində icarəyə

170 “Könüllü fəaliyyəti haqqında” 9 iyun 2009-cu il tarixli qanunun 9.1-ci maddəsi.

verilməsi praktikasının gücləndirilməsinə yönələn tədbirlər görülsün.

- Sosial müqavilələrin maliyyələşdirilməsinin həcmi artırılsın və onların tətbiq sahələri genişləndirilsin.

## 4.10 Hökumət-VCT əməkdaşlığı

### STANDART 1. DÖVLƏT SİYASƏTİ VCT-LƏRLƏ ƏMƏKDAŞLIĞA ŞƏRAİT YARADIR VƏ ONLARIN İNKİŞAFINI TƏŞVİQ EDİR.

VCT-lərin inkişafına və dövlətlə VCT-lər arasında əməkdaşlığa yönələn siyasətə dair sənədlər qəbul edilir və qanunvericiliyə daxil edilir.

Bu sahədə əsas sənədlərdən biri "QHT-lərə dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" Prezidentin sərəncamıdır (2007-ci il). Konsepsiyada VCT-lərə dövlət dəstəyinin aşağıdakı növləri nəzərdə tutulur: informasiya, konsultativ, metodiki, texniki-təşkilati, maliyyə və digər dəstək formaları.

2018-ci ildə VCT-ləri maliyyələşdirə biləcək dövlət donorlarının siyahısı üç yeni qurumla genişləndirildi (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi). Beləliklə, hazırda 12 dövlət donoru vardır.

Planlar və proqramlar da daxil olmaqla müxtəlif sahələr üzrə siyasət sənədlərində hökumətin VCT-lərlə əməkdaşlığı nəzərdə tutulur.

### STANDART 2. DÖVLƏT VCT-LƏRLƏ ƏMƏKDAŞLIĞI DƏSTƏKLƏMƏK ÜÇÜN XÜSUSİ MEXANİZMLƏR YARADIB.

VCT-lərlə əməkdaşlığın dəstəklənməsi üçün müxtəlif mexanizmlər mövcuddur. Əvvəlki illərlə müqayisədə 2017-2018-ci illərdə bu mexanizmlərdən daha çox istifadə olunub.

VCT-lərin köməyi ilə hazırlanmış və 2015-ci ildə qəbul edilmiş "İctimai iştirakçılıq haqında" qanunda VCT-lərlə əməkdaşlıq üçün bir sıra mexanizmlər nəzərdə tutulur: ictimai şuralar, ictimai dinləmələr və ictimai müzakirələr, qanunvericilik layihələrinin ictimai müzakirəsi, qanunvericilik aktlarının layihələrinə dair yazılı rəylərin təqdim edilməsi və ictimai rəyin öyrənilməsi. Məsələn, regionlarda yerli icra hakimiyyəti orqanları yanında yaradılmış bir neçə ictimai şura ilə yanaşı,[171] milli səviyyədə 10-a yaxın dövlət orqanı tərəfindən ictimai şuralar yaradılıb.[172] Nazirlər Kabinetinin 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin[173] və Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş «Mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının hazırladıqları hüquqi aktların layihələrinə dair ictimai dinləmə və ictimai müzakirənin keçirilməsi Qaydası»nın[174] qəbulu sayəsində ictimai şuraların fəaliyyəti və şəffaflığı üçün ətraflı prosedurlar daha da təkmilləşdirilib. Bununla belə, VCT-lər məlumat verirlər ki,

171 1-ci hədəf qrupu, № 3.

172 Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Komitəsi, Dövlət İmtahan Mərkəzi və ASAN.

173 30 may 2014-cü il, http://e-qanun.az/framework/27803.

174 30 may 2014-cü il, http://e-qanun.az/framework/27804.

müəyyən dövlət orqanlarının məşvərətçi qurumlarının VCT-lər tərəfindən seçilməsi prosesi şəffaf deyil.

Kənd Təsərrüfatı Nazirliyi birliklərlə (yəni fermer assosiasiyaları, arıçı assosiasiyaları ilə və s.) iş üçün ayrıca bölmə yaradıb. VCT-lər həmçinin İqtisadi İslahatlar Mərkəzi ilə məsləhətləşmələrə ekspert qismində cəlb olunurlar.

Onlarla VCT ilə yanaşı bir sıra dövlət orqanlarının da iştirak etdiyi AHT Platforması çərçivəsində müəyyən əməkdaşlıq həyata keçirilir.

2017-2018-ci illərdə VCT-lər dövlət orqanları tərəfindən (məsələn, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi, ASAN və s.) təşkil edilmiş bir sıra tədbirlərdə iştiraka dəvət ediliblər. Bununla belə, misal üçün Nazirlər Kabineti ilə və regionlarda əməkdaşlıq çox zəifdir.

2018-ci ildə QHT-lərə Dəstək Şurası "Sosial sifariş haqqında" və "Peşə birlikləri haqqında" qanun layihələrinin ictimai müzakirəsini keçirdi. İştirakçı VCT-lərin tövsiyələri parlamentə təqdim edilmiş bu layihələrin yekun versiyası hazırlanarkən nəzərə alındı. QHT-lərə Dəstək Şurası ilə parlament arasında VCT-lərlə əməkdaşlıq haqqında Anlaşma Memorandumu vardır ki, bu da VCT-lərin qanunverici orqana çıxışının asanlaşdırılmasına imkan yaradır.

**10-CU SAHƏ ÜZRƏ XÜSUSİ TÖVSİYƏLƏR:**

- "İctimai iştirakçılıq haqında" qanunda nəzərdə tutulmuş mexanizmlərə uyğun olaraq istər mərkəzi, istərsə də yerli səviyyələrdə dövlət orqanları ilə VCT-lər arasında əməkdaşlığın asanlaşdırılmasına yönələn tədbirlər görülsün.
- "İctimai iştirakçılıq haqında" qanunda nəzərdə tutulmuş ictimai iştirakçılıq mexanizmlərinin tətbiqinin səmərəliliyi artırılsın.
- Dövlət qulluqçuları üçün VCT-hökumət əməkdaşlığına dair təlim təşkil edilsin.[175]

175 Ətraflı müsahibə № 4.

# V. QƏNAƏTLƏR VƏ TÖVSİYƏLƏR

Azərbaycanda VCT-lərlə bağlı ümumi mühit 2014-2016-cı illərlə müqayisədə yaxşılaşıb. QHT-lərə Dövlət Dəstəyi Şurası və ya Gənclər Fondu kimi şəffaf dövlət maliyyələşdirməsi mexanizmləri VCT sektorunun etimadını qazanıb, baxmayaraq ki, bu qurumlar tərəfindən ayrılan ayrı-ayrı qrantların həcmi kifayət qədər aşağı olaraq qalır. Bu çatışmazlıq xarici qrantların və xidmət müqavilələrinin qeydiyyat statistikasının yaxşılaşması sayəsində aradan qalxmağa başlayıb, 2015-2016-cı illərdə həmin statistika faktiki olaraq sıfıra enmişdi.

VCT-lər Azərbaycanda demokratikləşmə prosesinə, hüquqi və iqtisadi islahatlara, sosial təminat sahəsinə, eləcə də qadın, uşaq, əlil, məcburi köçkün və qaçqınların insan hüquqlarının müdafiəsinə töhfə vermək potensialına malikdirlər. Bunu mümkün etmək üçün hökumət ən azı: a) VCT-lərin qeydiyyatı prosesini sadələşdirməli; b) VCT-lərin xarici maliyyələşdirməyə çıxışını asanlaşdırmalı; c) dövlət reyestrindən çıxarışların onlayn qaydada əldə edilməsi imkanını yaratmalı; d) VCT-lərin regionlarda tədbirlər keçirməsinə icazə verməli; e) VCT-lərin hesabatlılıq yükünü azaltmalı; və f) VCT-lərlə daha sıx məsləhətləşmələri təmin etməlidir.

VCT-lərin ictimai imici ildən-ilə yaxşılaşır ki, bu da VCT-lərin media ilə münasibətlərindən daha çox, milli donorların media ilə uğurlu əməkdaşlığı ilə əlaqədardır.

Bu hesabatda 10 sahə üzrə 37 tövsiyə əks olunub. Prioritet tövsiyələr aşağıda sadalanır. Onların hamısı hökumətə və ya parlamentə (qanunvericilik dəyişikliklərinə ehtiyac olduqda) ünvanlanıb:

- VCT-lərin qeydiyyat proseduru sadələşdirilsin;
- VCT-lərin qeydiyyatı və fəaliyyəti prosesində VCT-lərlə kommersiya müəssisələri ilə eyni qaydada davranılsın;
- Əcnəbi könüllülərin müvafiq yaşayış icazəsi əldə etməsi üçün mexanizm təmin edilsin;
- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-ləri təsis və idarə etmək hüquqları təmin edilsin;
- VCT-lərin hesabatlılıq öhdəlikləri sadələşdirilsin;
- Hüquqi şəxslərin dövlət reyestrindən yeni çıxarış əldə edilməsi proseduru sadələşdirilsin;
- Regionlarda tədbirlər keçirmək üçün icazə alma tələbi ləğv edilsin;
- Qrantların və ianələrin qeydiyyatı sadələşdirilsin;
- Xidmət müqavilələrinin qeydiyyatı tələbi ləğv edilsin;
- Kommersiya şirkətlərinin gəlir vergisinin 10%-inin VCT-lərə ödənilməsi üçün mexanizm işlənib hazırlansın;
- Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin VCT-lərə ianələr vermək hüququ

təmin edilsin;

- Nağd vəsait qutularından istifadənin tənzimlənməsi üçün hüquqi baza təmin edilsin və anonim ianələr üçün digər mexanizmlərin istifadəsinə icazə verilsin;
- Vahid onlayn resurs yaradılsın və milli səviyyədə bütün dövlət qurumlarının və yerli icra hakimiyyəti orqanlarının üzərinə qanunvericilik aktlarını ictimaiyyət və VCT-lər tərəfindən nəzərdən keçirilməsi üçün dərc etmək vəzifəsi qoyulsun;
- VCT-lərin ekstremizm, terrorizm, çirkli pulların yuyulması və ya korrupsiyaya qarşı mübarizə ilə əlaqədar öhdəliklərinə yenidən baxılsın və həmin öhdəliklər VCT-lərə risk əsaslı yanaşmaya uyğun olaraq və müəyyən yuxarı hədd müəyyənləşdirilməklə tətbiq edilsin (məsələn, illik dövriyyəsi 50.000 manatdan (təxminən 26.400 avrodan) artıq olan VCT-lərə şamil olunsun).
- Donor olan fiziki və hüquqi şəxslər üçün vergi güzəştləri müəyyən edilsin;
- Müddəti bir gündən artıq olmayan ayrıca işlər üçün könüllü ilə yazılı müqavilə bağlamaq tələbi ləğv edilsin.
- Xüsusən VCT-lərə təsir göstərən qərarlarla bağlı Nazirlər Kabinetində VCT-lərlə məsləhətləşmələrin aparılması təmin edilsin;
- Dövlət qulluqçuları üçün VCT-hökumət əməkdaşlığına dair təlim təşkil edilsin.

# VI. QOŞMALAR

## Qoşmalar 1 - Bibilioqrafiya


### QANUNLAR

The Administrative Procedures Code, June 30, 2009 http://e-qanun.az/code/20.

The Civil Code of the Republic of Azerbaijan, December 28, 1999 http://e-qanun.az/code/8.

The Civil Procedure Code, December 28, 1999 http://www.e-qanun.az/code/9.

The Code of the Azerbaijan Republic On Administrative Violations, December 29, 2015 http://www.e-qanun.az/code/24.

The Constitution of the Republic of Azerbaijan, November 12, 1995 http://e-qanun.az/framework/897.

The Constitutional Law on Amendments (June 24, 2011) to the "Constitutional Law on the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan" (December 28, 2001) http://www.e-qanun.az/framework/22060.

The Criminal Code, December 30, 1999 http://www.e-qanun.az/code/11.

The Criminal Procedure Code of the Republic of Azerbaijan, July 14, 2000 http://e-qanun.az/code/14.

The Law on Access to Information, September 30, 2005 http://www.e-qanun.az/framework/11142.

The Law on Amendments to Housing Code, April 25, 2017 http://e-qanun.az/framework/35766.

The Law on Changes to the Criminal Code, May 31, 2017 http://e-qanun.az/framework/36154.

The Law on Changes to the Tax Code, November 30, 2018 http://www.e-qanun.az/framework/41016.

The Law on Fight against laundering of money or other assets obtained by criminal means and funding of terrorism", February 10, 2009 http://www.e-qanun.az/framework/16347.

The Law on Freedom of Assembly, November 13, 1998 http://www.e-qanun.az/framework/3229.

The Law on Grants, April 17, 1998 http://www.e-qanun.az/framework/3527.

The Law on Joining the UN Convention on Access to Information, Public Participation in Decision Making and Access to Justice in Environmental Matters (Aarhus Convention), November 9, 1999, http://e-qanun.az/framework/5205.

The Law on Mass Media, December 7, 1999 http://www.e-qanun.az/framework/30.

The Law on Non-Governmental Organisations (public unions and funds), June 13, 2000 http://e-qanun.gov.az/framework/511.

The Law on Personal Data, May 11, 2010 http://www.e-qanun.az/framework/19675.

The Law on Procedures for review of citizen applications, June 10, 1999 http://www.e-qanun.az/framework/31281.

The Law on Public Participation, November 22, 2013 http://e-qanun.gov.az/framework/26879.

The Law on Ratification of the Council of Europe Convention on Protection of Persons in Accordance with the "Automated Processing of Individualized Data", September 30, 2009 http://www.e-qanun.az/framework/18625.

The Law on Social Service, December 30, 2011 http://www.e-qanun.az/framework/23195.

The Law on State Procurement December 27, 2001 http://www.e-qanun.az/framework/1029.

The Law on State Registration of Legal Entities and the State Registry, December 12, 2003 http://e-qanun.gov.az/framework/5403.

The Law on Voluntary Activity, June 9, 2009 http://www.e-qanun.az/framework/18159

The Tax Code, July 11, 2000 http://e-qanun.az/code/12.

### PREZİDENT FƏRMANLARI:

The Presidential Decree on Additional measures for providing for freedoms of expression thought and information in the Republic of Azerbaijan dated August 6, 1998 http://www.e-qanun.az/framework/3313.

The Presidential Decree on Approval of changes to the Presidential Decree of June 19, 1998 on changes to application of the Law on Information, Informatization and Information Protection, March 16, 2017 http://e-qanun.az/framework/35125.

The Presidential Decree on Implementation of the Law 'On making changes and amendments to some legislative acts of the Republic of Azerbaijan' dated August 27, 2009 http://www.e-qanun.az/framework/18320.

The Presidential Decree on the Application of the Principle of "one window" in the Procedure of Grant Issuance by Foreign Donors in the territory of the Republic of Azerbaijan", October 21, 2016 http://e-qanun.az/framework/33963.

The Rules on Coordination with the NGO Support Council of Grant Giving to CSOs by the State Bodies, October 21, 2015 http://www.e-qanun.az/framework/31055.

### İCRA STRUKTURLARININ QAYDALARI:

The Order of the Central Election Committee on conclusions and announcements of conclusions of the Referendum of September 26, 2016 http://e-qanun.az/framework/33891.

The Rules on Studying the Activities of Non-governmental Organisations, Branches or Representative Offices of Foreign Non-governmental Organisations, adopted by the Collegium of the Ministry of Justice (The MoJ) of the Republic of Azerbaijan on December 28, 2015 http://e-qanun.az/alpidata/framework/data/32/f_32061.htm.

### NAZİRLƏR KABİNETİNİN QƏRARLARI:

Rules of Providing State Orders in the Area of Social Services to Municipalities, Physical and Legal Entities, Including Non-Governmental Organisations, December 30, 2012 http://www.e-qanun.az/framework/25063.

The Decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan "On Approval of Criteria On Activities in Oil and Gas and Non-Government Sector", February 19, 2019 http://www.taxes.gov.az/modul.php?name=qanun&news=1386.

The Requirements for the Protection of Personal Data, September 6, 2010 http://e-qanun.az/alpidata/framework/data/20/c_f_20046.htm.

The Rules of Provision of Social Services at Homes and State Social Service Institutions on a Paid and Partially Paid Basis", December 30, 2012 http://e-qanun.az/alpidata/framework/data/25/f_25059.htm.

The Rules on Elections of CSOs to Public Councils approved by order of Cabinet of Ministers No 171, May 30, 2014 http://e-qanun.az/framework/27803.

The Rules on Organisation of Public Hearings and Discussions approved by order of Cabinet of Ministers, May 30, 2014 http://e-qanun.az/framework/27804.

### İHAM QƏRARLARI:

*Ismayilov v. Azerbaijan*, January 17, 2008, Application no. 4439/04, available at http://hudoc.echr.coe.int/sites/eng/pages/search.aspx?i=001-84461.

*Ramazanova and Others v. Azerbaijan,* Eur. Ct. H.R. (application no. 44363/02, February 1, 2007).

### TƏDQİQATLAR

Sahib Mammadov, Public Participation, Monitoring Report, Baku, 2017, http://ogp.org.az/wp-content/uploads/2017/02/PUBLIC-PARTICIPATION.pdf.

Concept paper on whistle blower publication by Transparency Azerbaijan, April, 2015, http://transparency.az/alac/files/Paper_on_whistelblowers_en.pdf.

### MƏQALƏLƏR

Round table on Transparency, Accessibility and Innovations in Registration of Real Estate, October 2, 2018, Trend News Agency, https://az.trend.az/business/2959445.html?fbclid=IwAR3AheoEH1jdPMAHqGl_VRjZURUXp4NwqHGFJHoHUsJajXBh-dSwVyq18qE.

Hadi Rajabli, Social Networks shall be Taken under Control, July 17, 2018 http://azpress.az/index.php?lang=az&sectionid=news&id=82065.

Survey by Moscow-based Kaspersky Lab cyber security company, October 2018 through a secondary source by Gunay Hajiyeva, Which Social Networks are most popular in Azerbaijan?, Caspian News, December 22, 2018, https://caspiannews.com/news-detail/which-social-media-networks-are-most-popular-in-azerbaijan-2018-12-22-30/.

Nika Musavi, Social media in Azerbaijan: the cradle of the protest movement, a nest of debauchery or a champion of the oppressed? Jamnews, October 17, 2018, https://jam-news.net/

social-media-in-azerbaijan-the-cradle-of-the-protest-movement-the-nest-of-debauchery-or-the-champion-of-the-oppressed/.

The defamation law adopted in many countries, Interview of Mushvig Aleskerli, deputy chair of Press Council to Ses newspaper, January 10, 2018, http://sesqazeti.az/news/interview/656694.html.

Scandal over a closed hostel in Baku, Jamnews, April 12, 2017, https://jam-news.net/scandal-over-a-closed-hostel-in-baku/.

#### HESABATLAR VƏ İNDEKSLƏR

Assessment of the Legal framework for NGOs in Azerbaijan, Fourth edition, July 2017, International Center for Non-for-profit Law, at http://www.icnl.org/programmes/eurasia/Assessment_NGO%20Law%20Azerbaijan%20Oct%202017%20fv.pdf.

Overview of obligations of NGOs as to fight against terrorism and money-laundering in Azerbaijan, May 17, 2016, International Center for Non-for-profit Law.

Civil Society Organisations Sustainability Index, USAID, Azerbaijan 2017, http://www.fdsc.ro/library/files/csosi_ee_2017_regional_report_final.pdf.

Freedom on the Net, 2018, https://freedomhouse.org/report/freedom-net/2018/azerbaijan.

Asia Internet Use, Population Data and Facebook statistics - June 30, 2018, https://www.internetworldstats.com/stats3.htm.

2019 World Press Freedom Index, by Reporters without Borders, https://rsf.org/en/ranking/2018#.

#### BEYNƏLXALQ SƏNƏDLƏR

Concluding observations of the Human Rights Committee on the fourth periodic report of Azerbaijan (CCPR/C/AZE/CO/4), November 2016.

Report of the Special Rapporteur on the situation of human rights defenders on his mission to Azerbaijan (A/HRC/34/52/Add.3), February 2017.

Parliamentary Assembly, Resolution 2184 (2017), The functioning of democratic institutions in Azerbaijan, adopted on October 11, 2017, available at http://assembly.coe.int/nw/xml/XRef/XrefXML2HTML-en.asp?fileid=24188&lang=en.

#### DÖVLƏT ORQANLARININ SAYTLARI

National Anti-Corruption Commission, http://www.antikorrupsiya.gov.az.

State Agency for Citizens Services and Social Innovations, www. asan.gov.az.

National Preventive Group under office of Ombudsman http://www.ombudsman.gov.az/en/view/pages/70/members-of-national-preventive-group.

Azerbaijan Press Council, https://www.presscouncil.az/az/.

Public Committee under the Ministry of Justice, http://www.justice.gov.az/categories/196.

Foundation for State Support to Development of Mass Media, http://kivdf.gov.az/.

The Council for NGO Support Conducted a Press Conference Devoted to Results of 2018, January 30, 2019, http://cssn.gov.az/news.php?id=3648&lang=az.

Youth Foundation, 110-th grant completion, https://youthfoundation.az/42251.

The Science Development Foundation Announces Results of Grant Completion on Integration of Science and Education, July 8, 2018 http://www.sdf.gov.az/az/generic/news/Detail/238.

### DİGƏR MƏNBƏLƏR

Letter from NGO Support Council, April 2019, at file with author.

Letter from Ministry of Justice, April 2019, at file with the author.

National conference on "Public Participation: Legal and Practical Issues, by EWMI's Socio-Economic Development Activity in Azerbaijan (SEDA) and the Council for State Support to NGOs, Ganja, November 13, 2014, https://ewmi.org/News/SEDANov2014.

Conference "Citizen Participation in Public Policies: Why does it matter?", by ECNL and National NGO Forum of Azerbaijan, ICNL and Counterpart International, Baku, November 24, 2014, http://ecnl.org/conference-on-citizen-participation-held-in-azerbaijan-2/.

The OGP Platform Accepted New Members, posting January 3, 2019 http://ogp.org.az/az/index.php/2019/01/03/azerbaycan-aciq-hokumet-platformasina-yeni-uzvler-qebul-edilib/.

Public debate on Transparency and Accountability in the Performance of Customs Authorities, May 22, 2018, http://ogp.org.az/index.php/2018/05/22/transparency-and-accountability--in-the-performance-of-customs-authorities/.